Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# El üçün yaşayıb, yaradan yazıçı Elçin Əfəndiyev

**Elçin Əfəndiyevin 75 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**El üçün yaşayıb, yaradan yazıçı Elçin Əfəndiyev:** Elçin Əfəndiyevin 75 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 67 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Hər insan sirli-sehrli bir aləm, yazılmamış bir kitabdır. Yaradıcı insanın könül dünyası daha cazibədar, təlatümlü, coşqun, üfüqləri isə daha geniş, zəngin və əlçatmaz olur. Elçin Əfəndiyev də həmin yaradıcı insanlardandır. Yazıçı Azərbaycan ədəbiyyatında sıçrayış etməyi bacarmış bir sənətkardır.

Elçin Əfəndiyev 60-cı illərdə ədəbiyyatımıza gəlmiş və tez bir zamanda əsərlərinin poetik gücü ilə geniş oxucu kütləsinin hörmətini qazanmış yazıçılarımızdandır. O, Azərbaycan nəsrinin "ədəbi təəccüb" hissindən daha çox xalqımızın milli-tarixi təəccübünü qoruyub saxlayan nümayəndələrdəndir.

Elçin Əfəndiyev əsl bir ziyalı ömrü yaşayıb. Ötən əsrin 60-cı illərindən üzü bəri yaşadığımız həyatın elə bir ciddi hadisəsi yoxdur ki, onun özünün, sözünün, qələminin diqqətindən yayınsın; bu dövrdə dünyada baş verən elə bir dəyərli ədəbi hadisə yoxdur ki, Elçin Əfəndiyev ona münasibət bildirməsin, öz qiymətini verməsin; yaşlı, gənc nəslin elə bir uğurlu əsəri yoxdur ki, Elçin Əfəndiyev onun haqqında ayrıca məqalə yazmasın və ya fürsət tapdığı bir məqamda qələm dostlarının nailiyyətlərinə sevinməsin. Bu dövrün mürəkkəbliyi daban-dabana zidd olan ideoloji sistemlər, imperiyanın çöküşü, müstəqillik uğrunda mübarizə, doğma Şuşa və Qarabağ itgisi ilə nəticələnən işğalçılıq müharibəsi – hamısı xalq yazıçısının əsərlərində əksini tapıb; bu tarixin içindən Elçin Əfəndiyev alnıaçıq çıxıb, çünki həmişə xalqın tərəfində olub, vətəndaşlıq məfkurəsindən dönməyib, mövqeyi aydın və ardıcıl olub. Yazıçı indi də yorulmaq bilmədən mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafı üçün əlindən gələni əsirgəmir. Yazıçının povest və hekayələrdən ibarət kitabları, seçilmiş əsərləri, ədəbi tənqidi məqalələri həmişə diqqət mərkəzində olmuşdur. Yazıçı çox oxumaq və sərbəst düşünmək nəticəsində

lakonik, qısa, yığcam düşüncələr dünyası yaratmışdır. Elə buna görə də onun hekayələri, povestləri, romanları həmişə diqqət mərkəzində olmuşdur. Bu əsərlər ümumittifaq miqyasında da şöhrət qazanmışdır.

Elçin Əfəndiyev nədən yazırsa yazsın, ona oxucularının arzu və düşüncələri prizmasından baxmağı bacarmışdır. Yazıçı tənqidi fəaliyyətə də yazıçı kimi başlamışdır. Lakin tənqidi əsərləri öz canlılığı, kəsəri, aktuallığı ilə həmişə ümumi maraq oyatmışdır. Yazıçı müasirliyi aktuallıqla eyniləşdirməyi, hər iki estetik kateqoriyadan sənətkarlıq hesabına sui-istifadə etməyi müasir ədəbiyyatın ən yaralı yeri sayır və bədii ədəbiyyatın sənətkarlıq məsələlərini, tənqidini həmişə onlarla vəhdətdə aparır.

Bu vəsaiti Elçin Əfəndiyevin anadan olmasının 75-ci ildönümü münasibətilə hazırlayıb sizə təqdim edirik. Əsas məqsədimiz oxucuların lirik hekayələr ustası, müqtədir romançı, mahir komediyalar müəllifi, psixoloji faciələr, tragediyalar dramaturqu, ədəbi prosesə hakimlik etmək səlahiyyəti olan ustad tənqidçi, fundamental monoqrafiyalarıyla özünəməxsus elmi-nəzəri sistemini yaradan klassik ədəbiyyatşünas alim Elçin Əfəndiyev haqqında olan biliklərini daha da artırmaqdır.

“El üçün yaşayıb, yaradan yazıçı Elçin Əfəndiyev” adlanan metodik vəsait “Giriş” və “Keçiriləcək tədbirlər” hissəsindən ibarətdir. Vəsaitin “Giriş” hissəsində Elçin Əfəndiyevin həyat və yaradıcılığından söhbət açılır. İkinci hissədə isə kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

## Giriş

Azərbaycan xalqının tarixi-mənəvi varlığını, bədii sözü ədəbiyyət aləmində inadkar inamla qoruyan, əks etdirən yazıçı və tənqidçilərdən biri çağdaş Azərbaycan ədəbiyyatının canlı klassiki Elçin Əfəndiyevdir. O, təkcə ədəbi-tarixi prosesdə yox, ümumiyyətlə, milli-ictimai fikirdə özünəməxsus yeri olan əvəzolunmaz yazıçı, ictimai xadim, təəssübkeş vətəndaş, böyük ziyalı və nəcib insandır. Elçin Əfəndiyevin yaradıcılığı Azərbaycan ədəbiyyatının zəngin bir təmayülünü təşkil edir. Elçin Əfəndiyev təkcə nəsr və dramaturgiyada yox, ədəbi tənqiddə də reforma aparmış müəllifdir. Elçin Əfəndiyev güclü düşüncələrin, incə duyğuların, sarsılmaz sevgilərin yazarıdır. Əsərlərində milli kökə bağlılıq və milli heysiyyat, Azərbaycan xalqının ruhundan uzaqlaşmamaq, mənəvi təmizliyi və saflığı tərənnüm etmək geniş yer tutur. Elçin Əfəndiyevi oxumaq Azərbaycan xalqını yaxından tanımaq, Azərbaycanın uzun illər boyu milli-mənəvi dəyərlər və istiqlal uğrunda apardığı müqəddəs mücadiləni öyrənməkdir. Müasirlik, həyat həqiqətərinə həssas və iti nəzər, xəlqilik və romantik pafos müasir bir sənətkar kimi Elçin Əfəndiyevin yaradıcılığında öz əksini tapan məziyyətlərdir. Bəli, Elçin Əfəndiyev Azərbaycan nəsrinin zirvəsinə doğru inamla addımlayan yazıçıdır. Elçun Əfəndiyev zamanla, dövrlə ayaqlaşan, xalqı sevən ədibdir.

Elçin İlyas oğlu Əfəndiyev – Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professordur. Elçin Əfəndiyev 13 may 1943-çü ildə Bakı şəhərində XX əsr Azərbayçan ədəbiyyatının böyük nümayəndələrindən biri, Azərbaycanın Xalq yazıçısı İlyas Əfəndiyevin ailəsində dünyaya gəlib. Uşaqlıq çağlarından etibarən ədəbi mühitin içində, kitabların əhatəsində olub. Bir tərəfdən milli ədəbiyyat, folklor, o biri tərəfdən isə dünya

ədəbiyyatı Elçin Əfəndiyevin daimi mütaliəsinin əsasına çevrilib. O, nə zaman yazmağa başlayıb? Bu suala Elçin müəllim özü belə cavab verir: "Özümü xatırladığım zamandan. Hələ yazıb-oxumağı bacarmırdım, amma özümdən cürbəcür əhvalatlar uydurub danışırdım..."

"İlk hekayəsi 16 yaşı olarkən, 1959-cu ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunub. Bakı şəhərində orta məktəbi (1960), Bakı Dövlət Universitetinin filologiya fakültəsini (1965), Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturasını (1968) bitirib, "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik, "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. "Min gecədən biri" adlı ilk hekayələr kitabı 1965-ci ildə çapdan çıxıb. Bundan sonra Elçin Əfəndiyevin dünyanın müxtəlif dillərində 100-ə yaxın kitabı nəşr olunub, əsərləri ingilis, rus, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, fars, çin, çex, slovak, polyak, xorvat, gürcü, litva, moldovan, türkmən, özbək, qazax, tacik, serb və sairə dillərə tərcümə edilib. Kitablarının ümumi tirajı 5 milyondan çoxdur.

Yazıçı ABŞ-da, Rusiyada, Fransada, Türkiyədə, Almaniyada, Hollandiyada, Çində, Belçikada, İspaniyada, Yunanıstanda, Tunisdə, Lüksemburqda, İsveçdə, İsveçrədə, Danimarkada, İranda, Ukraynada, Polşada, Özbəkistanda, Çexoslovakiyada, Yuqoslaviyada, Bolqarıstanda, İraqda, Avstriyada, Qazaxıstanda, Kanadada, Səudiyyə Ərəbistanında, Rumıniyada, Macarıstanda, Gürcüstanda, Pakistanda və digər ölkələrdə müxtəlif elmi, ədəbi, ictimai, siyasi konfranslarda, simpoziumlarda, qurultaylarda, görüşlərdə, rəsmi dövlət danışıqlarında iştirak edib. Uzun illər Azərbaycan Ali Sovetinin deputatı olub.

Yazıçının hekayələri ədəbi-bədii jurnalların, deyək ki, "Smena" və "Nedelya"nın mükafatlarına layiq görülüb. Elçin Əfəndiyev psixoloji hekayələrin ustasıdır. Azərbaycan ədəbiyyatında bu hekayələr həqiqi bir sənət nümunəsi kimi səslənir. Bu psixoloji hekayələrin ən dərin qatlarında müəllifin humanist fikirləri dayanır. İlk baxışda yazıçı qəhrəmanlarının heç birinə öz rəğbətini bildirmir, onları ancaq təsvir edir. Lakin hadisələrin məntiqi inkişafı yazıçının sadə adamların tərəfində dayandığını, onları ürəkdən sevdiyini göstərir. Bəli, Elçin Əfəndiyevin əsərləri real tarixi hadisələrə işıq salan ədəbi-bədii sənədlər salnaməsidir.

Yazıçı ədəbiyyatşünaslığımızı bu gün də məşğul edən, ayrı-ayrı hallarda sənətşünaslıq və estetika elmləri ilə sərhədlənən problemləri iki aspektdə – həm bədii nəsrin təcrübəsində, həm də onun tənqidində diqqət və ehtiyatla araşdırır, müqayisələr aparır, bədii əsərləri və tənqidi fikirləri, müxtəlif müəlliflərin rəylərini tutuşdurur, nəticə çıxarır, yüksək səviyyəli elmi xülasələr əldə edir. Elçin Əfəndiyev həm də 60- 70-ci illərdə tənqidçi həmkarları ilə birlikdə təsvir tənqidindən təhlil tənqidinə keçidin əsasını qoydu.

Elçin Əfəndiyevin xalqımızın tarixi, taleyi və bədii irsi ilə bağlı olan, uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləri XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Yazıçının yaradıcılığı yalnız Azərbaycanda deyil, sərhədlərimizdən kənarda da elmi-tədqiqat obyektinə çevrilir. Yaradıcılığına metafizik realizm üslubunda hekayələrlə başlayan yazıçı Azərbaycan ədəbiyyatının qızıl fonduna tarixi romanları, absurd dramları, sürrealist və realist hekayə və povestləri ilə daxil olmuşdur.

Ümumiyyətlə, istedad ali vətənpərvərlik, insansevərlik duyğusu ilə qovuşanda, büllur sənətkar təbiəti saf əxlaqla qoşalaşanda sənət möcüzələri yaranır. Bəhs etdiyimiz bu

xüsusiyyətlər hamısı Xalq yazıçısı Elçin Əfəndiyevdə var. Bu böyük yazıçının bədii təsvir vasitələri elədir ki, onun əsərlərini oxuduqda, elə bil, mahir bir rəssamın fırçası ilə canlandırılmış tablolara tamaşa edirsən.

Elçin Əfəndiyevin adı 60-cı illərin ideoloji qəliblərinə sığmayan üslubda yazıb-yaratmış və ədəbiyyatımızın yeni mərhələsini formalaşdırmış nasirlər arasında daim hörmətlə çəkilir. Yazıçı təkcə Azərbaycanda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanınan, sevilən yazıçılardandır. Həmişə ziyalılar mühitində olan, ömrü-günü kitablar arasında keçən Elçin Əfəndiyev daim oxumuş, öyrənmiş, dünyanın ən böyük yazıçılarının əsərləri onun üçün ədəbi meyara çevrilmişdir. Azərbaycan nəsrini, müasir ədəbi tənqid zirvəsini araşdıran Elçin Əfəndiyev öz yaradıcılığına da çox ciddi yanaşmış, dərindən öyrəndiyi, müşahidə etdiyi personajların həyatını yüksək sənətkarlıqla əks etdirməyi bacarmışdır. Yazıçının yaradıcılığının çoxşaxəli olmağı bəzən onun tədqiqatçılarını çıxılmaz vəziyyətdə qoyur: nasir, dramaturq, tərcüməçi, publisist, esseist, ədəbi, psixoloji və dramatik talelər, portretlər silsiləsini yaradan, tənqidçi, ədəbiyyatşünas, kinossenarist, sevən və sevilən övlad, ictimai xadim, dövlət xadimi...

"Vətən" cəmiyyətinin sədri kimi Elçin Əfəndiyev böyük işlər görmüş, ilk dəfə dünyanın bir sıra ölkələrinə səpələnmiş azərbaycanlıların dayağına, pənahına çevrilmişdir.

Elçin Əfəndiyevi bir yazıçı, dövlət xadimi, ziyalı, ata kimi həmişə uşaqların həyatı, onların təlim-tərbiyə məsələləri, uşaq ədəbiyyatı və onun problemləri maraqlandırmışdır. 1980-ci ildə "Aysunun, Humayın, Günayın, Yalçının və Nigarın nağılları", "Səlimin hekayələri" göstərdi ki, yazıçı uşaq ədəbiyyatına barmaqarası baxmır, öz balaca qəhrəmanlarının daxili dünyasına nüfuz etməyi bacarır.

Yazıçının bədii əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunmuş, kitab şəklində buraxılmışdır. Çağdaş milli nəsrimizin və dramaturgiyamızın banilərindən biri, şöhrətli yazıçı İlyas Əfəndiyevin ailəsində dünyaya göz açan yazıçının əsərləri – hekayə, povest, roman, publisistika, ədəbi qeydlər və hətta fundamental elmi məqalələri, tədqiqatları işıq üzü gördüyü vaxtdan dərhal sonra, öncə öz vətənində, eyni zamanda digər yaxın və uzaq ölkələrdə sürətlə yayılmış, sevilə-sevilə oxunmuş, daxili bir təlabatla neçə-neçə oxucu nəsli arasında əldən-ələ, zövqdən-zövqə ötürülərək davamlı bədii dəyərə malik olduğunu təsdiqləmişdir. İndinin özündə onun yaradıcılığı, onun araya-ərsəyə gətirdiyi ədəbi sərvət zamanın sınağından çıxmışdır. Elçin Əfəndiyevin yaratdığı Söz sınanmış Sözdür!

Son 50 ildə Azərbaycan mədəniyyətinin, Azərbaycandakı yeni estetik düşüncənin inkişafında hələ ki, yeganə dövr olaraq fərqləndirilən 60-cı illər nəslinin öncüllərindən olan Elçin Əfəndiyev elə bir sənətkardır ki, qələmə sarıldığı ilk çağdan, az qala əlli il ərzində heç zaman yazıçı ovqatından, üzərinə götürdüyü missiyadan, başqa sözlə, yaradıcı prosesdən heç bir miqyasda iraq düşməmiş, sirli-sehrli yazı masasının başını bir an da olsun tərk etməmiş və elə buna görə də ədəbi varlığının ən yetkin məqamına yetişdiyi indiki günlərimizdə heyrətamiz dərəcədə zəngin ədəbi-bədii irs yaratmağa nail olmuşdur.

Kimsə hərdən bir adiyə bədii obraz pasportu verəndə Elçin Əfəndiyev bu adi insanları əsərlərinə dəstə-dəstə gətirdi. Adiliyin estetikasını özününküləşdirdi. Adiliyin fəlsəfəsini oxudu və üzə çıxardı, adiliyin poeziyasını duydu və qələmə aldı. Nəticədə, adilik təməlində qeyri-adi ədəbiyyat yaratdı. Bu, Elçin Əfəndiyevin zəngin üslub cizgilərindən biri oldu. Yazıçı bu yolda xüsusi istedad göstərdi. “Baladadaşın ilk məhəbbəti”, “Baladadaşın toy hamamı” və Abşeronun, Bakı kəndlərinin mənzərəsini canlandıran neçə-neçə belə hekayə və povestləri

son 50 illik ədəbiyyatımızın həmişəyaşarlıq fondunun vəsiqəsini almışdır.

İstedadlı tənqidçi Q.Yaşar yazır: Elçin Əfəndiyev “gözəllik uzaqda deyil, həyatımızda, məişətimizdədir” – prinsipi ilə hərəkət edərək adi adamların daxilən gizlədib xəlvətdə saxladığı mənəvi keyfiyyətləri hamımız üçün estetik sərvətə çevirir. Bu ədalətli qiymətə belə bir fikir də əlavə etmək olar ki, yazıçı bu adi adamların heç birinin tərəfində dayanmır, onların həyatını, mübarizəsini təsvir etdikcə bu adamların daxilində gizlənən və qətrə-qətrə üzə çıxan bütövlükdə; – İnsan gözəldir! Təbiətin yaratdığı ən gözəl varlıq insandır! – fəlsəfəsinin ifadəsinə çevrilir. Müxtəlif əhvali-ruhiyyəli, müxtəlif fərdi həyat yolları keçən adamların mənəvi aləminə eyni səviyyədə dərindən nüfuz etmək qabiliyyəti onun yazıçılıq istedadının ən qüvvətli amillərindəndir.

Elçin Əfəndiyev uzun illər boyu Azərbaycan ədəbiyyatının ən müxtəlif problemləri barədə keçmiş ittifaq mətbuatında çıxışlar etmiş və bu professional səviyyəli yazıları ilə milli ədəbiyyatın uğur və problemlərini işıqlandırmağa nail olmuşdur. Onun həm bədii, həm də elmi-tənqidi yazılarında əsas özül sabitlikdir. Ədəbiyyat elminin bu və ya digər sahəsi ilə, milli mədəniyyət və mənəviyyatın ayrı-ayrı problemləri ilə bağlı fikir və qənaətlərin sabitliyi, daha artıq dərəcədə qəlbən və ağlın gücü və işığı ilə inandığı, tanındığı həqiqətlərdən üz çevirməmək, onları hər şeydən qabaq milli mənəviyyatla bağlamaq, araşdırıb öyrənmək adəti. Yazıçının bir çox tənqidi məqalələri dünya ədəbiyyatı və mədəniyyəti kontekstini əhatə edir. Bu tipli yazıları diqqətlə nəzərdən keçirdikdən sonra dərk edirsən ki, əsas məqsəd yenə də məhz milli ədəbiyyatın indiyə kimi gün işığı düşməyən, kölgədə qalan cəhətlərini öyrənməkdir. Elçin müəllim təsvir etdiyi obrazları içinəcən, daxili aləminin bütün çalarlarınacan görməyi bacarır, bu görüntülərdə ən dəqiq, ən səciyyəvi olan

cizgiləri seçə bilir. Yazıçı nə elmi, nə də bədii yaradıcılığında rəng adiliyi, həyata münasibətin birtərəfliliyi ilə barışmır. Əsərlərində varlığın şeriyyətini açır, ehtiyac duyanda onun sərt və acı həqiqətlərini göstərir. Dinamiklik, hadisələri daxildən açıb mənalandırmaq, surəti təbii və həyati ifadə etmək onun hekayələri ilə povestləri arasında rabitə yaradır. Elçin müəllim mövzu seçəndə, həyatın bir "parçası"nı təsvir edəndə, surətin daxili-mənəvi aləminə enəndə heç kimə bənzəmir, həmişə özünün üslubuna, şirin və axarlı yazı tərzinə sadiq qalır, geniş əhatəli təbiət təsvirləri vermir, əlavə haşiyələrlə düşünmür, bir qayda olaraq mahiyyətə, psixologiyaya, hiss və düşüncə aləminə enir, surətin daxilində gizlətdiyi ziddiyyətləri, qeyri-adi keyfiyyətləri açır. Buna görə də oxucu bu istedadlı sənətkarın yaratdığı surətlərin taleyi, əxlaqi-mənəvi keyfiyyətləri, istək və arzuları, onların özlərinə məxsus hərəkət və fəaliyyətləri ilə maraqlanır.

E.Əfəndiyev "Yaxın, uzaq Türkiyə" əsərində özünü işgüzar bir tədqiqatçı kimi göstərir. Türkiyədəki kitabxanalardan, arxivlərdən əldə etdiyi məlumat, dövri mətbuatı hərtərəfli nəzərdən keçirməsi nəticə etibarilə onun oçerklərinin elmi və faktik sanbalını daha da artırır. Elçin Əfəndiyevdə görmək, seçmək, səciyyəvini sənətə gətirə bilmək, ümumiləşdirmək və mənalandırmaq, gözəlliyi məişətdə, yaşayışda, davranış və münasibətdə axtarıb tapmaq bacarığı çox güclüdür. Onun bədii nəsrində hər şeyin, hər kəsin öz yeri, öz məqamı, öz məna və məzmunu var. Yazıçı rəmzdən, bədii-fəlsəfi şərtilikdən, kəskin məcazdan cəsarətli istifadə edir, psixoloji əhvali-ruhiyyəni detalda əyanriləşdirən mizanlar və cizgilər axtarır, onları görümlü, baxımlı, obrazlara çevirən epitetlər tapır.

Elçin Əfəndiyevin dünyanın şah əsərləri arasına girən və ədəbi dəyəri üzərində həssaslıqla durulan "Ağ dəvə", "Ölüm hökmü", "Mahmud və Məryəm" əsərlərini də türk

ədəbiyyatsevərlər tanıyırlar, bu əsərlər ədəbiyyat tarixinə düşmüşdür. Mənim fikrimcə, insanlar nə ilə iftixar edərlər? Ya keçmişi, tarixi, ədəbiyyatı, mədəniyyəti, ya da bugünkü beynəlxalq siyasət səhnələrindəki müvəffəqiyyətləri ilə. Bu xüsusiyyətlərin əksəriyyəti Elçin Əfəndiyevdə var.

Elçin Əfəndiyev atası, müəllimi olmuş İlyas Əfəndiyevdən müasir həyatı dərindən duymağı, insan taleyinə, insan mənəviyyat və psixologiyasına sənət qayğısı ilə yanaşmağı, mövzuya vətəndaş münasibəti bəsləməyi, bədii yaradıcılığın sirlərini və dilin daxili imkanlarını axtarışda mənimsəməyi, oxucunun zövqü və yüksək tələbi səviyyəsində dayanmağı öyrənmişdir. Çünki yazıçıda İlyas Əfəndiyev sənətinə bir obyektiv yazıçı-tənqidçi məhəbbəti vardır. Elçin Əfəndiyev bu görkəmli ədibi yaradıcı şəkildə duyur, onun boya və rənglərindən təzə axarda istifadə edir. Sirr deyildir ki, "Aman ovçu, vurma məni" kinopovesti İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" pyesinin motivləri əsasında, "Hökmdarın taleyi" kinopovesti isə İlyas Əfəndiyevin qələmə aldığı "Hökmdar və qızı" faciəsinin motivləri əsasında yazılmışdır. Elçin Əfəndiyev fasiləsiz yaradıcılıq axtarışındadır, onun bədii şəkillərin hamısından eyni dərəcədə istifadə edə bilmək imkanı vardır. Ona görə də oxucu Elçin Əfəndiyevin istedadına, onun daha tutumlu, daha mənalı əsərlər yazacağına inanır. Gərgin vəzifə işləri, həm də milli mədəniyyət, dövlətçilik üçün vicdanla görülən işlər və bununla yanaşı cild-cild kitablar – Elçin Əfəndiyevin həyat yolu belə əlamətlənir. Bu tək-tək insanlara qismət olan keyfiyyətdir. Bu gün Elçin Əfəndiyevin adı hər bir azərbaycanlı üçün tanış və doğmadır. Çox maraqlı, həm də son dərəcə qürur doğuran odur ki, milyonlarla oxucuların bu məhəbbət və ehtiramını illər, onilliklər də təsdiq edə bilər. Bir yazıçı kimi Elçin Əfəndiyev üçün yaradıcılıq axtarışları heç vaxt tükənməmişdir.

## Keçiriləcək tədbirlər

Bu il həmişə oxucu rəğbəti qazanmış Xalq yazıçısı Elçin Əfəndiyevin 75 yaşı tamam olur. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbiri keçirmək üçün kitabxana bağçalarla, məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə Elçin Əfəndiyev haqqında kitablar və müxtəlif mətbuat səhifələrində nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgiyə kitablarla yanaşı, Elçin Əfəndiyev haqqında dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, onun haqqında çəkilmiş sənədli və bədii filmlərin video-yazılarını yazıçının əsərlərinə çəkilmiş filmlərin, kaset və disklərini də əlavə etmək olar. Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər – söhbətlər, biblioqrafik icmallar keçirmək planlaşdırılmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər: “Möhtəşəm qələmin möcüzələri”, “Müqəddəs söz-sənət ocağının nurlu varisi”, “Romantika və əxlaqi kamillik yaradan yazıçı”, “Adiliyin qeyri-adi bədii təcəssümü”, “Yazıçı və zaman”, “Komediya və dramlar yaradan yazıçı”, “Rənglər, duyğular aləminin mahir yaradıcısı Elçin”, “Milli dramaturgiyamızda Elçin mərhələsi”, “Xalqın və sənətkarın obrazı”, “ Nəsrin və əsrin yaddaşı” və s.

Başlıq: “Müqəddəs söz-sənət ocağının nurlu varisi”

1. Elçin Əfəndiyevin portreti;

3. Görkəmli insanların Elçin Əfəndiyev haqqında söylədikləri sitatlar;

4. Dövri mətbuatda çap olunan məqalələrin kartotekası;

5. Kitablarının nümayişi;

6. Şeir parçası..

# Sərgi


















**Görkəmli şəxsiyyətlərin Elçin Əfəndiyev haqqında söylədikləri fikirlər:**

Elçin yaradıcılığının çoxşaxəli olması ilə seçilən, müxtəlif janrlarda uğurla işləməyi bacaran qələm sahiblərindəndir. O, ictimai fəaliyyəti ilə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın mənəvi birlik və həmrəyliyi işinə yüksək dərəcədə xidmət etmişdir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Elçinin ədəbi hadisələrə obyektiv yanaşması, işin ağırlığından qorxmaması, mühüm elmi-bədii problemlərə nəzəri əsaslarla yanaşması əsərlərinin sanbalını xeyli artırmış, bu əsəri ləyaqətli bir tədqiqata çevirmişdir.

**Mir Cəlal Paşayev,**
*yazıçı, professor*

Elçin ləyaqətlə yaşanmış bir ömrün 40 ildən artıq müddətini ədəbiyyata həsr etmiş, çağdaş nəsrimizin, dramaturgiyamızın, tənqidimizin aparıcı şəxsiyyətlərindən biri kimi şöhrət qazanmışdır.

**Anar,**
*Xalq yazıçısı*

... Elçinimiz necə sürətlə boy atdı, Doğunu və Batını mənimsəyən parlaq bir ədəbiyyat bilicisinə, filosof qüdrətli nəzəriyyəçiyə çevrildi... Elçinin oxucusu olmaq çətindir. Çünki onun əsl qəhrəman hökmü ilə saçdığı inciləri yığıb-yığışdırmaq olmur..

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Elçinin “Ölüm hökmü” romanını oxuyanda yaşadığım acı günləri, qorxu və təlaş dolu illəri yenidən yaşadım və onun yaşını düşünüb heyrətləndim. O amansız və dəhşətli illəri bu qədər təbii və inandırıcı şəkildə qələmə ala bildiyinə təəccübləndim. Bu yazılar Elçinin şəxsi müşahidəsinin məhsuludur. Elçinin sənətinin sehrini və istedadının gücünü alqışlayıram!

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Elçinin əsərləri işıqlı, nikbin hisslərlə, həyat eşqi və insana hərarətli, lirik məhəbbətlə aşılanmışdır... O, insanı daxildən, psixoloji aləminin mürəkkəbliyi ilə təsvir edir, rənglərin zənginliyinə fikir verir.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Elçin həmişə vaxtdan ucada dayanmağı bacarıb, həmişə hər yerdə vaxtın sözünü deyə bilib. Elçin yaratdıqlarında səmimi olan, saxta rənglərə, cansız gəzişmələrə, qanadı sınmış cümlələrə yer verməyən, həyatı əslində necə varsa, o cür ifadə etməyi bacaran yazıçıdır.

**Mövlud Süleymanlı,**
*Xalq yazıçısı*

Elçin adamların xarakterindəki keçici, ötəri yox, mühüm, təyinedici cəhətləri görür, işıqlandırır və bu işıq altında da onun yaddaqalan obrazını yaradır... O öz epik əsərləri ilə Azərbaycan romanının səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

**Bəkir Nəbiyev,**
*akademik*

Elçinin müxtəlif sənət sahibləri olan surətləri... nəinki mənəvi-əxlaqi keyfiyyətləri, arzuları, əməlləri, həm də peşə və yaşlarına görə də qocası qoca, cavanı cavan, uşağı uşaq kimi inandırıcıdır, realdır. Elçin varlığı, hadisə və insan səciyyəsini canlandırmaqda bir-birini tamamlayan bədii nüfuz üsullarından istifadə edir.

**Məmməd Cəfər,**
*Əməkdar elm xadimi, nasir*

Elçin Azərbaycan ədəbiyyatının XX əsrdən XXI əsrə keçici dövrünün qaranlığa işıq saçan mayaklarından biridir. O real və zəngin bədii yaradıcılığı ilə xalqına, ümumən bəşəriyyətə layiqli xidmət etmişdir.

**Budaq Budaqov,**
*akademik*

Elçinin hekayə və povestlərini oxuyanda qələmindəki özünəməxsusluğun bədii cizgiləri, əlamətləri dərhal nəzərə çarpır... Nüfuzedici bir nəzərlə uzaqlara və dərinliklərə dalmaq, gözə görünən və görünməyən ara pərdələri qaldırıb əsl mahiyyətə, nüvəyə çatmaq meyli bu yazıçıya xas bir keyfiyyətdir.

**Məmməd Arif,**
*Əməkdar elm xadimi, nasir*

Elçin Azərbaycan ədəbiyyatını yalnız respublika ölçüsündə deyil, dünya ölçüsündə araşdırır.

**Abbas Zamanov,**
*Əməkdar elm xadimi*

Elçin müasir Türkiyə ədəbiyyatından və ədəbi prosesindən bəhs edərkən belə bir fikri əsas götürür ki, ədəbiyyat dövrün

mühüm siyasi-ictimai problemlərindən kənarda qalmamalı, həmişə öz xalqının ictimai marağının keşiyində dayanmalıdır, bilavasitə həyatdan bəhrələnməlidir. O, qabaqcıl dünya ədəbiyyatından faydalanmaqla birlikdə milli ədəbi ənənələrinə arxalanmalıdır...

**Həmid Araslı,**
*akademik*

Elçinin dil spesifikliyi və özünəməxsusluğu bir yazıçı kimi qabarıq keyfiyyətlərindəndir. Elçinin yaradıcılığının əsas xüsusiyyətlərindən biri obrazların reallığı, dinamikliyidir.

**Yusif Səmədoğlu,**
*Əməkdar incəsənət xadimi*

Elçin bədii teksti dünyaya yaxınlaşdırmağı bacarır. Elçinin söylənti tərzi povestlərində və hekayələrində əsasən silsilə cümlələrdən alınmış iri cümlələrdən yığılır. Ədəbiyyatımızda bunun kökü Füzuli nəsrinə, Mirzə Fətəliyə, Mirzə Cəlilə ... gedib çıxır.

**Niyazi Mehdi,**
*fəlsəfə elmləri doktoru*

...Elçinin yaradıcılığında "yazıçı yaddaşı" güclü bir faktordur. Onun "Bayraqdar" povesti öz müəllifinə müasir dövrdə – XXI əsrin əvvəllərində də ədəbi bayraqdarlıq ucalığı gətirmişdir.

**Nərgiz Paşayeva,**
*professor*

Elçin tutduğu rəhbər ictimai vəzifələrdə, yüksək dövlət vəzifələrində həmişə böyük səriştə və enerji ilə, xeyirxahlıq,

eyni zamanda prinsipiallıqla geniş mənada Azərbaycan mədəniyyətinə xidmət etmişdir.

**Tofiq Quliyev,**
*Xalq artisti*

Bu böyük yazıçının bədii təsvir vasitələri elədir ki, onun əsərlərini oxuduqda, elə bil, mahir bir rəssamın fırçası ilə canlandırılmış tablolara tamaşa edirsən.

**Tahir Salahov,**
*Xalq rəssamı*

Elçində dil ürək kimi çırpınır, beyin kimi düşünür, su kimi axır, gün kimi işıq saçır, axşam kimi düşür, dərd kimi ağrıdır, ruh kimi susur... Elçin şöhrət üçün yox, ürəyinin hökmü ilə yaradan sənətkardır.

**Vaqif Bəhmənli,**
*Əməkdar mədəniyyət işçisi*

Elçin Əfəndiyevin kitabxanada bir neçə kitabının icmalını keçirmək, onun yaradıcılığından bəhs edən diskussiyalar da təşkil etmək olar. Diskussiyalar keçirilərkən yazıçının hekayələrindən, romanlarından, dramlarından söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir, onlarla yazıçının yaradıcılığı haqqında diskussiya aparılır. Yaxşı olar ki, diskussiya kitabxana ətrafında yerləşən məktəblərdə təşkil olunsun. Kitabxanaçı məktəblilərlə Elçin Əfəndiyevin əsərləri əsasında aşağıdakı formada diskussiya apara bilər: "Hörmətli oxucularımız. Hamımıza görkəmli yazıçımız Elçin Əfəndiyevin əsərləri tanışdır. Məlumdur ki, Elçin Əfəndiyevin əsərlərində yeni olan iki bədii məziyyət ədəbi-bədii fakt olaraq çözülə bilər. İstər "Mahmud və Məryəm" də, istər "Ağ dəvə" də, istərsə də "Ölüm hökmü" ndə zaman və məkan Elçinin o vaxta qədərki

yaradıcılığına xas olmayan bir miqyasda sonsuzluq, hüdudsuzluq, genişlik qazanıb.

Adətən yazıçı hekayə və povestlərində bir-iki ilin, bir neçə ayın, beş-on günün, bir səhərin, bir gecənin, üç-dörd saatın, hətta an qədər qısa zaman aralığının bədii mətləbini qələmə alırdı... Halbuki, "Mahmud və Məryəm" romanında eşqin, ali və ülvi məhəbbətin işığı böyük tanrının insanı yaratdığı ilk gündən baş alıb gəlir. "Ağ dəvə" romanında bir günün, yazı mizi başında keçən bir neçə saatın içində ən azı əlli ilin hadisələri qeyri-adi dərəcədə mükəmməl bir təfərrüatla göz önündə durmaqda, canlı bir görsənişdədir. Yazıçının hər bir romanı ayrı-ayrılıqda lakonik epopeyadır. Bəli, təbiətin ayrılmaz bir parçası olan insanın, insan taleyinin epopeyası...

Uşaqlar, sizin bu haqda fikriniz nədir? Nə üçün yazıçı "Mahmud və Məryəm" əsərini dastan adlandırır? Bu dastanla "Əsli və Kərəm" dastanı arasında oxşar və fərqli cəhətlər nədir?"

*Oxucuların fikirləri:*

**I oxucu:** Mahmud və Məryəm" romanların içində ən zərifi, ən kövrəyidir. "Mahmud və Məryəm" eşq haqqındadır. Ən azı ona görə ki, romanın əsasında bütün Şərqdə "Əsli və Kərəm" adı ilə dillərdə gəzib dolaşan, dastan gecələrini bəzəyən kədərli bir əhvalat dayanır. "Əsli və Kərəm"in motivlərinə söykənib başı bəlalı eşqdən, öndə aşiqlərə bal dadızdıran, ortada zəhərə, sonda külə dönən eşqdən yan keçmək mümkün deyil. "Əsli və Kərəm"in motivləri əsasında Elçin Əfəndiyevin qələmə aldığı "Mahmud və Məryəm" isə realist yazıçının yaratdığı dastandır. Romanın bütün sturkturuna hopmuş aydınlıq, sadiqlik, xəlqilik, humanizm, bəşərilik, kamillik "Mahmud və Məryəm"i dastan adlandırmağa imkan yaradır. "Əsli və Kərəm" dastanın sujeti "Mahmud və Məryəm" romanında olduğu kimi saxlanılıb, fantaziyaya yol verilməyib; ayrı-ayrı dinlərə məxsus iki gənc bir-birini sevir, lakin şəriətin müəyyən etdiyi qaydalar bu

izdivaca yol vermir. Fəqət "Əsli və Kərəm"dən fərqli olaraq "Mahmud və Məryəm"də eşq, sevgi bədii mətnin yeganə predmeti deyil. Romanda iki gəncin qara gələn bəxti, yaranışdan uğursuzluğa məhkum taleyi fondur, hərçənd ki, bu fonun özü çoxçalarlıdır, ümumi məzmunda həlledici atributddur.

**II oxucu:** Mahmud, eləcə də onun əhatəsində olan bütün insanlar sonu zəhərə, külə dönən eşqdən daha dəhşətli bir fəlakət qarşısındadır. Bu fəlakət dünyanın faniliyi ilə bağlıdır. Fani olan dünyada eşqin əbədiliyindən söz açmaq olarmı?

Mahmud və Məryəm həqiqətini yaradan, ona qoynunda yer ayıran dünya qan qoxuyur. Bu böyük məhəbbətin gözləri qarşısında ordular baş-başa gəlir, qılıncının zərbindən qayalar parçalanan cəngavərlərin gözlərini qarğalar dimdikləyir. Humanist yazıçı insanları ayılmağa, yaxşılıqları dəyərləndirməyə çağırır. Yazıçı həyatın faniliyinə qarşı əzəli bal, ortası əzab, sonu kül olan sevgini, müharibələrə qarşı sülhü, var-dövlətə, dünya sərvətlərinə qarşı həqiqi təmizliyi, paklığı qoyur.

**Kitabxanaçı:** Azərbaycan ədəbiyyatının nadir nümunələrindən olan "Ağ Dəvə" Elçin qələminin sirli qüvvəsi ilə min illərin yaxşılıq və pisliklərini, mərdlik və namərdliklərini bir anın içinə sığışdıran epopeyadır. Bu haqda mülahizələrinizi söyləyin.

**I oxucu:** Qəbiristanlıqda adi bir təsadüf nəticəsində əsərin qəhrəmanı, həm də hadisələrin qəhrəmanı Ələkbərin gördüyü uşaqlıq illərinin tanışları, məhəllə adamlarının çöhrəsi saysız-hesabsız tale hekayələrini göz önünə gətirir. "Ağ Dəvə" sənətkarlıq baxımından Elçin Əfəndiyevin yaradıcılığında, eləcə də çağdaş nəsrin hərtərəfli tədqiq olunmağa layiq əsərlərdən biridir. Bu əsərlə tanışlıqdan sonra oxucuya elə gəlir ki, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Azərbaycan nəsrində hansı bir mərhələsə başa çatır və əlinə qələm alan hər hansı bir Azərbaycan yazıçısı yeni bir oxucu marağı qazanmaq

istəyəcəksə o, mütləq Elçinin “Ağ Dəvə” romanındakı etirafları təkrar etməli olacaq.

**Kitabxanaçı:** Uşaqlar bildiyimiz kimi Xalq yazıçısı Elçinin “Ölüm hökmü” əsəri 1960-cı illərin ən gözəl romanları sırasında oxucuların marağına səbəb olmuş, rəğbətini qazanmışdır. Romanda qaldırılan problemlər bu günümüz üçün də ibrətamizdir. Bu roman haqqında kim ətraflı məlumat verə bilər? Əsər hansı dövrü əhatə edir?

**I oxucu**: Bu romanda yazıçı üçün fərqləndirici üç əsas cəhət diqqəti cəlb edir. Tarixi mənbələrə, arxiv sənədlərinə bələdlik, yüksək elmi mühakimə və bədii yaradıcılıq bacarığı. Bu işdə Elçin Əfəndiyevin üzərinə çox böyük məsuliyyət düşürdü. Çünki hadisələr yaşlı nəslin gözləri qarşısında cərəyan etmişdi. Çünki 20-30-cu illərin hadisələri Azərbaycan xalqı üçün zəlzələdən, taundan dəhşətli fəlakət idi. Onun zərbəsi bütün ağıllı adamları yaxalayırdı. “Ölüm hökmü” təkcə repressiyalar və onun nəticələrindən bəhs edən roman deyildir. Bu əsərdə çox adamın deyə bilmədiyi şeyləri Elçin Əfəndiyev demişdir. Yazıçı hər cür tərifə və alqışa layiqdir, roman isə Azərbaycan bədii nəsrinin nailiyyəti, ədəbi ictimaiyyətimizdə mükəmməl bir hadisədir. 1920-1960-cı illər arasında respublikamızda baş verən faciəvi hadisələrin bədii ifadəsi olan həmin əsəri müəllif özü səhnələşdirmişdir. Əsərdə hadisələr iki hissədə cərəyan edir. 1954-cü ilə qədərki stalinizm dövrü hadisələri birinci hissədə, şəxsiyyətə pərəstiş dövrünün sona çatıb “Xruşşov mülayimləşməsi” dövrü hadisələri isə ikinci hissədə verilmişdir.

**II oxucu**: Əsərdə irəli sürülən əsas ideya, qoyulan əsas fikir insanın şəxsiyyət kimi daim şərə qarşı durmasıdır, insan ləyaqəti hər şeyi üstələməlidir. Ölüm hökmünü bir olan Allahdan başqa heç kəs verə bilməz. Edilən pislik, törədilən cinayət cəzasız qalmır; gec-tez hər kəs öz əməlinin cavabını alır. Mənəviyyata, hiss və duyğuya təsir etmək, oxucunu düşündürmək və fikrən

hərəkətə gətirmək üçün Elçin Əfəndiyev sözün və bədii təsvirin imkanlarından yaradıcı şəkildə istifadə edir.

**Kitabxanaçı:** İndi isə gəlin Elçin Əfəndiyevin "Dolça" povesti ətrafında diskussiya aparaq. Bu povestin yazıçının digər əsərlərindən fərqi nədir? Bu povestdəki ailələr haqqındakı fikriniz nədir? Bu ailələr arasındakı fərqli cəhətləri kim saya bilər?

**I oxucu**: Elçin Əfəndiyevin "Dolça" povesti heç bir əsərinə oxşamır. Povest boyaların sərtliyi, gülüş və ifşanın aşkarlıq və dərinliyi ilə fərqlənir. Elçin Əfəndiyev "Dolça"da meşşanlığı, müasirliyin, yeni əxlaq, davranış və münasibətin antipodlarını ifşa edir. Yazıçı bilə-bilə iki ailəni Ağababanın ailəsi ilə Bəşirin ailəsini qarşılaşdırır. Ağababanın ailəsi sevgi, qarşılıqlı münasibət, dərin hörmət və qayğı üzərində qurulmuşdur. Burada zəhmət ailəni ucaldır, arzulara, qanadlı düşüncələrə aparır. Təsadüfi deyildir ki, Bəşirin, Əminə, Ofelya, Adil və Kələntərin əməlləri, münasibət və davranışları Ağababanın ailə üzvlərində ikrah, kin və hiddət hissi doğurur. Bu adamları görməmək üçün Ağababa "evdən qaçır", Nuhbala gününü dənizdə keçirir, qızlar vaxtı rəfiqələri ilə öldürür. Ağababa xəcalətlənir, canını dişinə tutub bir söz demir.

**Kitabxanaçı:** Bizə belə gəlir ki, "Dolça"da rəng sərtliyi, sözün əsil mənasında boyaların qatılığı Bəşirin, Əminə, Kələntər və Ofelyanın əməllərindən doğur və Elçin Əfəndiyevin üslubunu tamamlayır. Bu povest yazıçının yaradıcılıq axtarışları, bədii nəsrinin orijinallığı haqqında dolğun təsəvvür oyadır.

**II oxucu:** Elçin Əfəndiyevin yaradıcılığında bədii dil xüsusilə dəyərlidir. Yazıçı elita deyilən zümrəni kənara qoyub cəmiyyətin alt qatına, saf, təmənnasız, zəhmətkeş, torpaq kimi əməksevər insanlara üz tutanda onlarla öz gündəlik ailə-məişət dillərində ünsiyyətə girir. Yazıçı ədəbilik möhürü ilə aliləşdirilən nitqin üzündən ənliyini-kirşanını silir. Abşeron

camaatının evdə, küçədə, məclisdə işlətdiyi danışığın dadını-duzunu eynən çatdıran təbiiliyi saxlayır. Ədəbilik pərdəsinin parıltılı cilasını təmizləyir və canlı dil Mirzə Cəlil dilinin sadəlik gücü ilə görünür. Əsərin gücü oxunuşundadır.

**Kitabxanaçı:** Uşaqlar, Elçinin "Bülbülün nağılı" povestini yəqin ki, hamınız oxumusunuz. Kim bu povest haqqında öz fikrini bildirər? Bu povestdəki "kədərin gözün dibinə çökməsi" ifadəsini siz necə başa düşürsünüz? Bu əsərdəki hansı hadisə Füzulinin "Leyli və Məcnun" əsərini bizə xatırladır? Yazıçı nə üçün bu povesti nağıl adlandırır?

**I oxucu**: Elçinin "Bülbülün nağılı" adlı lirik hekayəsi dilinə görə sanki şeirdir. Bu məşhur şeirdə "kədərin gözün dibinə çökməsi" kimi ayrıca bir şeir yükü daşıyan ifadə var. Burada sarı bülbülün ayağından zəncirlənməsini ilk dəfə görürük – heç demə, qəfəsə min şükür. Füzulinin Məcnunu ahunu ovçudan satın alıb təbiətə buraxdığı kimi, bir Allah bəndəsi xeyirxahlıq məcnunu da bu bülbülü zəncirdən xilas edir. Guya, ona azadlıq verir: güllü-çiçəkli bir bağçada qızıl qəfəsə salır. Bülbül ən qəmli nəğmələrini bu qızıl qəfəsin içində oxuyur. Elə oxuyur, səsilə hər tərəfə elə dərd, qəm səpələyir ki, bağçanın yayın istisindən, payızın çiskinindən solmayan gülləri, çiçəkləri bülbülün bu nəğmələrinin hüznündən saralıb-solur. O, xeyirxahlıq məcnunu da bu sızıltıya dözməyib bülbülü qəfəsdən buraxır və bunu izləyir: bülbül uzun yollar keçib bir qoca palıd ağacının oyuğundakı yuvasına girir. Taqətdən düşmüş bülbül ətrafdakı doğmalığa baxıb, bütün gücünü toplayıb oxumağa başlayır. Bülbül ölümü ilə üz-üzə dayanıb oxuyur. Ölüm qarşısında o, ən şən nəğməsini oxuyur.

**II oxucu**: Sevinc firavan həyatda, dərd əzablı yaşayışda deyilmiş. Sevinc azad olmaqda, dərd qandallı olmaqda imiş. Elçin Əfəndiyev bu həqiqəti demir, əyani şəkildə göstərir: bülbül azad nəğməsini oxuyub sevinc içində olur. Bu, dəhşətli

bir məcnunluq lövhəsidir. Buna dramaturqlar, məsələn, Şekspir, İlyas Əfəndiyev tragediya deyərdilər, ancaq bu dəhşətli faciəyə Elçin nağıl deyir, – “Bülbülün nağılı”. Təbii ki, bütün ecazkar keyfiyyətlərin hamısı “nağıl” içində var. Bu nağıl da Elçin qələminin möcüzəsidir. Oxuyan uzun zaman bu nağılın təəssüratı ilə yaşayır. Bədii ədəbiyyat, bədii dil budur, yazıçılıq da buna deyərlər...

**Kitabxanaçı:** Uşaqlar, Elçin Əfəndiyevin uşaqlar üçün yazdığı əsərlər haqqında nə söyləyə bilərsiniz? Bu əsərlərin qəhrəmanları haqda nə məlumatınız var? Onlara sizin münasibətiniz necədir? Yazıçının əsərlərindəki rənglər nəyi ifadə edir? və s.

**I oxucu**: “Bu dünyada qatarlar gedər”, “Baladadaşın ilk məhəbbəti”, “Gümüşü, məxməri, narıncı”, “Səlimin hekayələri”, “Humayın yuxusu” və s. Realist həyatımızın mənzərəsini əks etdirmək müasir yeniyetmələrin duyğu və düşüncəsini, kənddə yaşayan cavanların poetik dünyasını vermək Elçin Əfəndiyevin hekayə və povestlərinin əsas xüsusiyyətləridir. Yazıçının hekayələrində müasirlik anlayışı kəndin xarici görünüşündə, yeni tikililərin, mədəniyyət ocaqlarının çoxluğunda deyil. Bəzən yazıçı kəndi təsvir etmir, adamların daxili dünyasını, fikir və qayəsini, həyata baxışını elə realist və aydın cizgilərlə verir ki, yazıçının platforması son dərəcə parlaq şəkildə görünür.

**II oxucu**: “Bu dünyada qatarlar gedər” hekayəsinin qəhrəmanı Əbilidir. Müəllif bizi nə bu kəndin özü, nə də adamları ilə tanış etmir. Əbilidən başqa bu kənddə yaşayanların ancaq adını eşidir, haqqında bir-iki ifadəyə rast gəlirik. Amma Əbilinin məhdud dünyagörüşü, yoldan ötüb keçən qatarlara onun heyrətli baxışının arxasında bu uşağın şair ürəyini görürük. Əbili təbiətin qoynunda böyüyən və kəndlərindən keçən qatarlara, bu qatarların içində gedən Qırmızı, Yaşıl, Çəhrayı uşaqlara həsrətlə

baxan romantik uşaqdır. Əbili bir şeyi yaxşı başa düşür ki, həmin qatarda gedən uşaqlarla onun arasında çox fərq var. Həmin uşaqların qoxusu böyük-böyük şəhərlərin qoxusudu və həmin o qoxu Əbildən gəlmir. Əbili bu uşaqların xarici görünüşündə ümumi bir şey kəşf edir. Bu uşaqlar rəngbərəngdi. Yazıçı həmin rənglərin poeziyasını vermək üçün konkret rənglərlə adamları təsvir edir. Bir dəfə Əbiligilin kəndinin yanında dayanan qatardan Çəhrayı rəngli bir qız yada düşür. Yazıçı onun konkret xarici görünüşünü vermir, daha ümumi və fəlsəfi məna daşıyan rənglə bu qızı təqdim edir. Çəhrayı rəngli qız Əbilinin adına gülür. Sonra onu başqa qızlara göstərib, onları da güldürür. Amma Əbili Çəhrayı rəngli qızdan incimir. Çünki Əbilinin böyük və təmiz ürəyi var. Yazıçı bizə onun təmiz ürəyi haqqında bir söz demir.
**III oxucu:** Ancaq bir gün Əbili Çəhrayı qızdan inciyir. Çünki o şokolad qutusunu ayaqlarının altında oynadır, sonra da gərəksiz bir şey kimi saymazyana yerə tullayıb qaçır. Əbili şokolad qutusunun təmiz olduğunu görür. Ürəyi şokolad istəsə də onu yeməyi nəinki özünə, hətta yetim Səfərə də rəva görmür. Çünki Əbili elə buradaca kəşf edir ki, yetim Səfərin heç nəyi Çəhrayı qızdan əskik deyil. Müəllif şərti olaraq Çəhrayı adlandırdığı həmin qızın bütöv surətini yaratmaq üçün başqa bir əhvalatı da hekayəyə əlavə edir. Bir dəfə Əbili başqa bir qatardan tullanmış kitabı əlinə götürür. Bu kitab zir-zibilə bulaşsa da, Əbili üçün maraqlıdır. Çünki kitabın üstünə S.Yesenin sözləri yazılıb. Ə bili rus şairi S. Yeseninin xatirinə kitabı götürür. Sən demə, bu kitabı pəncərədən atan həmin qıza Rüfət adında bir oğlan bağışlayıbmış. Əbili Çəhrayı qızı xatırlayır. Körpə vaxtı şokolad qutusuna laqeyidlik göstərən həmin o Çəhrayı qız indi də bir oğlanın ürək sözləri olan kitabı beləcə qatarın pəncərəsindən çölə ata bilər – Əbili beləcə fikirləşir və əti ürpəşir. Axı, Əbili bu çiskinli-dumanlı balaca kənddə böyüsə də təmiz bir ürək

sahibidir. Bu kənddə şübhəsiz hamı Əbili kimi deyil. Bu kəndin də Çəhrayı qızları və çəhrayı oğlanları var.

**IV oxucu**: Beləliklə, yazıçı mücərrəd Çəhrayı obrazını konkretləşdirir, onun mənfi çalarlarını açır və Əbili surətini həmin Çəhrayı uşaqlarla müqayisədə daha da zəngin göstərir. Əsəri oxuyarkən anlayırıq ki, ilk günlər Əbili “adamların sirrini”, “adamların ürəklərini” bir-birinə aparan, bəzən kəndə “nağıl aləmindən... gələn” qatarlara heyranlıqla baxır. Özünü dərk edəndən, həmyaşıdlarının əxlaqi-mənəvi aləminə enəndən sonra isə onun nəzərində şəhərdən gələn “rəngbərəng uşaqlar” adiləşir, onların fikirlərində, hiss və duyğularında ucalıq, ülvilik və gözəllik tapa bilmir. “Ürəyini özü ilə aparan” qatarlara zamanın surəti, dövrün fasiləsiz hərəkəti kimi baxır. Düşünür ki, “bu dünyada gedən təkcə qatarlar deyil. İllər də qatarlar kimidir, gəlir, gedir... görünməz olur”. Əbilidə belə bir inam oyanır ki, bu dünyada “çəhrayı qızlar” və “çəhrayı oğlanlar” çoxdur. Qatarın – zamanın inkişafını, dövrün axarını Səfər onlardan daha yaxşı duyur, gözəlliyi daha dərindən yaşayır. Buna görə də Moskvaya oxumağa gedəndən sonra da Əbili fikrən kəndlə yaşayır, kənd düşüncələrindən, kənd xatirələrindən ayrıla bilmir; ürəyini bu kənddə, “bu dağların arasında, bu yerlərin çiskinliyində-çənində qoyub gedir”. İnanır ki, “bundan sonra bütün ömrü boyu nə edəcəksə, bu yerlərin, bu balaca kəndin sayəsində edəcək”, başa düşür ki, “bütün ömrü boyu bu yerlərə, bu balaca kəndə borclu olacaq və heç vaxt həmin borcundan çıxa bilməyəcək”.

**Kitabxanaçı:** Uşaqlar fikirlərinizi çox bəyəndim. Yaxşı bəs yazıçının “Baladadaşın ilk məhəbbəti” əsəri haqqında fikriniz nədir?

**I oxucu**: “Baladadaşın ilk məhəbbəti” də Elçin Əfəndiyevin sevilən əsərlərindəndir. “Baladadaşın ilk məhəbbəti” hekayəsində başına “aerodrom” kepka qoyub süst bir həyat

keçirən və gözlənilmədən eşqə düşən Baladadaşın qəribə sevgisi verilir. Səhərdən axşamacan çöldə oturub şumaqədər yonan və ətrafda baş verən hadisələrə tam biganə olan Baladadaş Çexovun qəhrəmanlarını xatırlatsa da orijinal tipdir. Çünki onun süst həyatı, arabir özünə məlum olmayan cəsarəti ilə ürəyinin lap dərinliyində qoruyub saxladığı poetik aləm arasında təzad var. Sevdiyi qızı görmək üçün hıqqana-hıqqana su gətirməyi özünə rəva bilir, amma qızın nişanlısı ona həmin suyun müqabilində dəmir birmanatlığı uzadanda özünü təhqir olunmuş hesab edir. Həmin oğlanın qırmızı "Moskviç"inə minib bir neçə kilometr getdiyi üçün cibində olub qalan üç abbasını oturacağın üstünə atır və oğlanın nə dediyinin fərqinə varmadan dənizə tərəf gedir. Baladadaşın gülməli məhəbbəti, onun key təbiəti və təmiz, ləyaqətli cavan qəlbi gözümüzün qarşısında canlanır. Baladadaş bir tərəfdən uşaqdır, axşamacan uşaqlarla oturub-durur, bir tərəfdən böyükdür, əsgərlikdə olan dostu barədə düşünür. Dostuna xəbər göndərir ki, hökmən o da Amur vilayətinə gəlib orada kursa girəcək. Beləliklə, müəllif uşaqlıqla gəncliyin sərhəddində olan Baladadaşın tam surətini yaradır. Həm Əbili, həm də Baladadaş özlərində kəndin təmizlik və sadəliyini, təbiilik və adiliyini cəmləşdirirlər. Ancaq Baladadaş sərtdir, xasiyyətində, davranış və münasibətində bir qədər qeyri-adilik vardır. O, hekayə boyu inamından dönmür, həyati vəziyyətdən çıxmır, "Öz bildiyini atasına da vermir". Elçin Əfəndiyev Baladadaşın psixologiyasını, hiss və duyğusunu əsərdə məharətlə açır. Baladadaş vəzifə və mövqeyi ilə öyünən, daş-qaşla nişanlısına xoş gəlmək istəyən bir adama Murada ibrət – nəzakət dərsi verir, onu sarsıdır, ağır düşüncəyə aparır. Uşaqlıqla gəncliyin sərhəddində uşaqların qəlbində baş qaldıran hissləri ifadə etmək üçün müəllif yenə də rənglərdən istifadə edir. Rənglər hisslərin obrazı kimi özünü göstərir və əsərin daha canlı olmasını şərtləndirir.

**Kitabxanaçı**: Əziz oxucularımız. Bildiyimiz kimi "Gümüşü, narıncı, məxməri" hekayəsi də yazıçının uşaqlara həsr etdiyi əsərlərindəndir. Gəlin bu hekayə ətrafında diskussiya aparaq. Hekayədəki rənglər nəyi ifadə edir? Əsərin qəhrəmanı haqqında fikirləriniz. Bu əsərin "Bu dünyadan qatarlar gedər" hekayəsi ilə bənzərliyi nədədir?

**I oxucu:** "Gümüşü, narıncı, məxməri" hekayəsinin qəhrəmanı Allahverdi uşaqlıqla gəncliyin sərhəddində özünə də məlum olmayan hisslər keçirir. Çox sonralar ona məlum olur ki, bu hisslər Sədəf adlı qızı sevməsi ilə bağlıdır. Lakin müəllif bu hissləri mürgülü, yarıyuxulu uşaqlıq dünyasının qurtarması kimi verir və onun rəng çalarlarını tapır. Allahverdi ilk eşqə düşən gündən rəngli yuxular görür. Bu yuxular gümüşü, məxməri və narıncı rənglərlə doludur. Rəng obrazları Elçin Əfəndiyevin realist – romantik hekayələrində xüsusi bir xətt kimi nəzəri cəlb edir. Yazıçı hər bir rəngin ifadə etdiyi hissi vermək üçün məlum yolla getmir, özü yeni yollar axtarır və hər dəfə məqsədinə uyğun şəkildə ondan istifadə edir. Məsələn "Bu dünyadan qatarlar keçər" hekayəsində sevinc hisslərini əks edən çəhrayı rənglə mənfi obraz yaradanda biz görürük ki, yazıçı rənglərin ifadə etdiyi təbii hisslərdən asılı qalmır, özü rənglərə təzə məna verir və bizi həmin mənaya inandıra bilir. "Gümüşü, məxməri, narıncı" hekayəsində də rənglərin ifadə etdiyi təbii hisslər yazıçı üçün əsas olmur. Müəllif Allahverdinin qəlbində bir-birinə qarışan sevgi, qürrə, xudbinlik kimi hisslərin hamısını rənglər şəklində görə bilir. Elçin Əfəndiyevin hekayələrində ilk baxışda əhəmiyyətli olmayan detallar həlledici rol oynaya bilir, qəhrəmanın özünə məlum olmayan hisslərinin ifadəçisinə çevrilə bilir.

**II oxucu:** "Gümüşü, narıncı, məxməri" hekayəsinin qəhrəmanı Allahverdi uşaqlıq həyatının yuxulu günlərini keçirdir. Hətta yoldaşı Sədəfin sevgi məktubu da Allahverdinin mürgülü

hissilərini oyada bilməyib. Müəllif burada belə bir fikir söyləyir ki, gəncliyin ilk oyanış çağlarında onun mürgülü həyatını pozmaq üçün bir təkan olmalıdır. Bəli, Allahverdi Sədəfin ona yazdığı sevgi məktubunu qətiyyən qiymətləndirə bilmir. Lakin kinooperatorun Sədəfi kinoya çəkmək istəməsi, bu barədə kənddə gedən söz-söhbətlər Allahverdini yuxulu uşaqlıq günlərindən ayırır. Bu təkan onu uşaqlıqdan gəncliyə keçməsinə kömək edir. Allahverdi Sədəfə yenidən baxa bilir və qızı sevdiyini yalnız bu hadisədən sonra özü üçün aydınlaşdırır.

*Sonda kitabxanaçı diskussiyanı yekunlaşdırarkən Elçin Əfəndiyevin əsərlərinə konkret şəkildə fikrini bildirir.*

**Kitabxanaçı:** Elçin Əfəndiyev ilk hekayələrindən həyata cəsarətlə müdaxilə edir. İşdə və fəaliyyətdə, düşüncə və münasibətdə, ailə və məişətdə baş verən nöqsanlarla barışmır. Humanizm və vətənpərvərliyi, xalq məhəbbətini zahiri əlamətlərdə axtaran, əslində milli hiss və qürurdan, daxili yetkinliklərdən məhrum olan, Füzuli ilə Vaqifi bir-birindən ayıra bilməyən "qanlı oğlana" gülür. Elçin Əfəndiyev gənclərin narahat və yaradıcı axtarışlarından, onların romantik xəyal, arzu və düşüncələrindən, məişətdən, ailə həyatından yazanda şirin söyləmə üsulu seçir, mənalı yumor lirizmə qarışır, surətin məndəricəsini sətiraltı qənaətlər tamamlayır. Əgər belə olmasaydı, nə "Baladadaşın ilk məhəbbəti", "Toyuğun diri qalması", "Baladadaşın toy hamamı", nə də "Bir görüşün tarixçəsi"ndə haqqın, işığın, gözəlliyin mövcudluğu, hətta bir çox hallarda təntənəsi barədə ürəkdən tikan çıxaran epizodlar və xallar olmazdı. Belə olmasaydı, Baladadaş, əli pulla, "brilyant medalyon"la oynayan Murada, on altı - on yeddi yaşlı məsum Məsməxanım harınlamış "Qızıl Ağadadaş"a, həssas məktəbli Əbili "çəhrayı qızlara", "çəhrayı oğlanlara", sürücü Ağababa

"Gümüş Malik"ə qarşı qoyulmazdı. Elçin Əfəndiyev həyatı, bədii obrazı dərindən düşünür. İnsanı özünəməxsusluğu, daxili ziddiyyətləri ilə təsvir edir. Təkcə hekayələrində yox, povestlərində də geniş tərcümeyi-hal materialı vermir, portret yaradanda təfərrüata varmır. Rənglərlə, mükalimələrlə, bədii mahiyyətdən doğan haşiyələrlə surətin mühiti, ömür yolu haqqında dolğun təsəvvür oyadır.

Kitabxanada sevilən tədbirlərdən biri də rəsm müsabiqələridir. Bildiyimiz kimi Elçin Əfəndiyev bir-birindən maraqlı hekayələrin, povestlərin müəllifidir. Müsabiqə zamanı həmin hekayələrə, povestlərə uşaqlar tərəfindən illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Elçin Əfəndiyevin əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri hekayəyə, povestə illüstrasiyalar çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Həmçinin rəsm müsabiqələri üçün məktəblərarası yarışmalar da təşkil etmək olar. Rəsm müsabiqələri ilə yanaşı başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, uşaqların ifasında Elçin Əfəndiyevin hekayələri, kinopovestləri səhnələşdirilərək münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Əsəri ən gözəl səhnələşdirən uşaqlardan ibarət komanda mükafatlandırılır.

Kitabxanada keçiriləcək kütləvi tədbirlərin ən canlı və maraqlısı sual-cavab gecəsi və viktorinalardır. Sual-cavab gecələri və viktorinalar canlı söhbət və müsahibə şəklində keçirilir. Bu da oxucuları maraqlandıran sualların aydınlaşdırılmasına xidmət edir. Tədbir zamanı suallar uşaqlara paylanır. Ən çox suala cavab verən oxucu kitabxana rəhbərliyi tərəfindən mükafatlandırılır. Suallardan bir neçəsini sizə təqdim edirik.

**Sual 1:** Elçin Əfəndiyev kimdir?
**Cavab:** Elçin Əfəndiyev İlyas Əfəndiyevin oğlu, lirik hekayələr ustası, dramaturq, romançı, mahir komediyalar müəllifidir.
**Sual 2:** Elçin Əfəndiyev hansı hekayələrin müəllifidir?
**Cavab:** "Zireh", "Mənlə mən arasında", "Qarabağ şikəstəsi", "Dünyanın bəxtəvəri", "Ayaqqabı", "Bülbülün nağılı", "Baladadaşın ilk məhəbbəti", "Baladadaşın toy hamamı", "Talvar", "Sarı gəlin", "Qızıl diş", "Araba", "Qış nağılı", "Parisdə avtomobil qəzası", "Şuşaya duman gəlib", "Gümüşü, narıncı, məxməri" və s.
**Sual 3:** Elçin Əfəndiyev hansı uşaq hekayələrinin müəllifidir?
**Cavab:** "Səlimin hekayələri", "Mənə niyə gülürlər?", "Gör necə top vuraram...", "Mən Lalə istəyirəm", "Mən hər şeyi bilirəm", "Aysunun, Humayın, Günayın, Yalçının və Nigarın nağılları", "Balaca qırmızı çiçək", "Küləyin, çinarın və qaranquşun balasının hekayəti", "Humayın yuxusu", "Gilas qız", "Kukla, yoxsa Aysu?", "Ayıca, Aysu yorulub", "Axı nə oldu ki, birdən hamı güldü?" və s.
**Sual 4:** Elçin Əfəndiyevin hansı əsərləri ekranlaşdırılmışdır?
**Cavab:** "Əllər və rənglər", "Ömrün səhifələri", "Alıcının sərgüzəşti", "Arxadan vurulan zərbə", "Gözlə məni", "Şəlalə", "Gümüşü furqon", "Bağ mövsümü", "Humayın yuxusu", "Sahilsiz gecə", "Tikdim ki, izim qala", "Bahar oğlu", "Milli bomba", "Bizim qəribə taleyimiz", "Mətbuat fədaisi", "Hökmdarın taleyi", "Silinməyən izlər... Tofiq Tağızadə", "Mahmud və Məryəm" və s.
**Sual 5:** "Gümüşü, narıncı, məxməri" hekayəsinin baş qəhrəmanı kimdir?
**Cavab:** Bu əsərin baş qəhrəmanı Allahverdidir.
**Sual 6:** Elçin Əfəndiyevin hansı povestləri, kinopovestləri var?

**Cavab:** "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça", "Bayraqdar", "Ox kimi bıçaq", "Aman ovçu, vurma məni", "Hökmdarın taleyi" vəs.

**Sual 7:** Elçin Əfəndiyevin əsərləri hansı dillərə tərcümə olunub?

**Cavab:** Elçin Əfəndiyevin dünyanın müxtəlif dillərində 100-ə yaxın kitabı nəşr olunub, əsərləri ingilis, rus, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, fars, çin, çex, slovak, polyak, xorvat, gürcü, litva, moldovan, türkmən, özbək, qazax, tacik, serb və sairə dillərə tərcümə edilib. Kitablarının ümumi tirajı 5 milyondan çoxdur;

**Sual 8:** Elçin Əfəndiyevin hansı kinopovestləri İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" pyesinin, "Hökmdar və qızı" faciəsinin motivləri əsasında çəkilmişdir?

**Cavab:** "Aman ovçu, vurma məni" kinopovesti İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" pyesinin motivləri əsasında, "Hökmdarın taleyi" kinopovesti isə "Hökmdar və qızı" faciəsinin motivləri əsasında yazılmışdır.

**Sual 9:** Elçin Əfəndiyevin "Bayraqdar" povestinin əsas mövzusu nədir?

**Cavab:** "Bayraqdar" povestində ağlagəlməz hadisələrdən, ictimai-tarixi dəyişikliklərin qurbanı olan insanlardan, qaçqınlıq əzabına, mənəvi təhqirinə düçar olmuş cəmiyyətdən söhbət açılır. Povestdə Ermənistanın Qarabağ iddiası, ölkəmizə təcavüzü, tökülən qanlar, zəhərlənmiş talelər yazıçı tərəfindən ustalıqla işıqlandırılır.

**Sual 10:** Elçin Əfəndiyevin "Dolça" povesti haqqında nə bilirsiniz?

**Cavab:** Elçin Əfəndiyevin "Dolça" povesti heç bir əsərinə oxşamır. Povest boyaların sərtliyi, gülüş və ifşanın aşkarlıq və dərinliyi ilə fərqlənir. Elçin Əfəndiyev "Dolça"da meşşanlığı, müasirliyin, yeni əxlaq, davranış və münasibətin antipodlarını ifşa edir.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə *“Müqəddəs söz – sənət ocağının nurlu varisi”* adlı ***konfrans*** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Elçin Əfəndiyevin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Yaxşı olar ki, konfransa Elçin Əfəndiyevin özü də, dəvət olunsun. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Elçin Əfəndiyevin həyat və yaradıcılığı haqqında məruzə);
2. Elçin Əfəndiyevin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları;
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Elçin Əfəndiyevin müxtəlif əsərləri ətrafında müzakirələri;
4. Yazıçının əsərlərindən bir neçə parçanın səhnələşdirilməsi;
5. Konfransın yekunu.

Elçin Əfəndiyevin irsinin təbliği üçün ***ədəbi-bədii gecələrin*** keçirilməsi zəruridir. Gecəni *“Möhtəşəm qələmin möcüzələri”* başlığı ilə adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik:

*Tədbirin əvvəlində iştirakçılara Elçin Əfəndiyevin yaradıcılığından bəhs edən slayd təqdim olunur. Səhnə yazıçının portreti, əsərlərindən ibarət sərgi ilə, uşaqlar üçün yazdığı hekayələri əks etdirən şəkillərlə, haqqında yazılmış sitatlarla bəzədilir. Gecəyə Elçin Əfəndiyev, onun yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət olunur. Aparıcılar səhnəyə çıxıb, tədbiri açıq elan edirlər.*

**I aparıcı:** Salam əziz və hörmətli tədbir iştirakçıları!

Bugünkü tədbirimiz xalq yazıçısı, görkəmli nasir, dramaturq, tənqidçi, ədəbiyyatşünas, publisist və ictimai xadim Elçin Əfəndiyevin həyat və sənət yoluna həsr olunmuşdur. Hamımıza məlumdur ki, Azərbaycan nəsrində müşahidə olunan maraqlı keyfiyyət dəyişikliyi prosesində özünü təsdiq etmiş yazıçılar içərisində Elçin Əfəndiyev xüsusi yer tutur. Yazıçının povest və hekayələri bu cəhətdən səciyyəvi olub, nəsrimizdəki məzmun və sənətkarlıq axtarışlarının bəzi cəhətləri haqqında aydın təsəvvür oyatmağa kömək edir.

**II aparıcı:** Vətənimizin dünəni ilə bu günü, cəmiyyətimizin bu günü ilə sabahı arasındakı əlaqə və vəhdətin sarsılmazlığı ideyası Elçin Əfəndiyevin əsərlərində öz təcəssümünü tapmışdır. İnsan şəxsiyyətinin, xarakterin təşəkkülündən mühüm mərhələ olan yeniyetməlik çağlarında bu yeniyetmələrin düşdüyü vəziyyətlər, keçirdiyi həyəcanlar, yaşadığı fikir və duyğular vasitəsilə yazıçı inandıra bilir ki, onlar sabahın ləyaqətli vətəndaşı kimi yetişəcək. 40-45 il bundan əvvəl Elçin Əfəndiyev dilinin gözəlliyi, təzəliyi, süjetlərinin orijinallığı, üslubunun əlvanlığı ilə diqqətimizi çəkirdi. Bu əlamətlər bu qələm sahibinin yazıçı gələcəyinə inam təlqin edirdi. Bununla da Elçin Əfəndiyev hələ çox cavan yaşında, ilk yaradıcılıq nümunələrindən istedadını elan etdi. O, bu gün 75 yaşının tamam olduğu bir dövrdə də yaradıcılığının monumentallığı ilə bizi heyrətləndirir. Hörmətli tədbir iştirakçıları! Gəlin oxucumuzun ifasında sevimli şairimiz Fikrət Qocanın Elçin Əfəndiyevin yubileyi münasibəti ilə qələmə aldığı “Altmış yaşın mübarək” şeirinə “Yetmiş beş yaşın mübarək” deyək və dinləyək:

*Oxucu:* Dostumuz, qardaşımız
El yanında üzün ağ!
Dünyanı seldə boğar
Bir damla göz yaşımız

Bir gün başına yağır
Sənin güllər, çiçəklər
Qocalığın gəncliyi
Yetmiş beş yaşa deyirlər
Səni istəməyənlər
Başın daşa döyürlər.
Dostlar sənə əl çalır.
Yaşa! Yaşa – deyirlər
Hələ qılınc kimisən,
Maşallah, hələ cağsan.
Allah qoysa, sən hələ
Yüz il yaşayacaqsan!
Sən yaşa, biz də görək!
Hələlik, dostum Elçin,
Yetmiş beş yaşın mübarək!

**I aparıcı:** Bizim ölkədə 20-80 yaş arasında elə bir insan təsəvvür etmək olmaz ki, Elçin Əfəndiyev yaradıcılığının çox qismini doyulmaz zövq ala-ala, ruhi bir qüdrət qazana-qazana oxumasın, onun lirik-psixoloji üslubu, poeziya ovqatlı, duzlu-məzəli dram əsərlərinə tamaşa etməsin. Ustad sənətkarın istedad və zəhmətlə nail olduğu yazı mədəniyyəti, özünü sözə çevirmə tərzi insanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini ifadə etmək baxımından doğma Azərbaycan dilini həsəd aparılacaq bir ucalığa yüksəltmişdir. Belə bir bacarıq hər yazıçıya qismət olmur. Elçin Əfəndiyevdə dil ürək kimi çırpınır, beyin kimi düşünür, su kimi axır, gün kimi işıq saçır, axşam kimi düşür, dərd kimi ağrıdır, ruh kimi susur... Elçin Əfəndiyevin bu xüsusiyyətləri qələm yoldaşları tərəfindən həmişə yüksək qiymətləndirilmişdir.

**II aparıcı:** Bəlkə buna görə də Elçin nəsrinin, Elçin yaradıcılığının qüdrətini canlandırmaq çox çətindir. Çünki bu yaradıcılıq baxılmağa, araşdırılmağa layiqdir. Elçin

Əfəndiyevdə bədii idrak duyğusu güclü və cəlbedicidir. Yazıçı Azərbaycan ədəbiyyatına bir-birindən gözəl hekayələr bəxş edib. Eyni zamanda "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Poçt şöbəsində xəyal", "Dolça" və başqa məşhur povestlər də yazıçıya uğur gətirib. Bununla bərabər hər biri milli nəsrimizin inkişafında önəmli yer tutan, Azərbaycan bədii təfəkkürünü irəliyə aparan "Ağ Dəvə", "Mahmud və Məryəm", "Ölüm hökmü" əsərləri hekayə, povest ustası Elçin Əfəndiyevi romançı olaraq təqdim edir. Bəli, Elçin Əfəndiyev romançıdır. Onun ən yığcam hekayəsində, ən kiçik povestində də roman tutumu, roman dərinliyi, roman siqləti var. Elçin Əfəndiyev şöhrət üçün yox, ürəyinin hökmü ilə yaradan sənətkardır. Milli nəsrin ən qiymətli inciləri olan bu əsərlər həm də çağdaş dünya nəsrinin hadisələri olaraq qiymətləndirilə bilər.

**I aparıcı:** Elçin Əfəndiyev həyatı, bədii obrazı dərindən düşünür. İnsanı özünəməxsusluğu, daxili ziddiyyətləri ilə təsvir edir. Təkcə hekayələrində yox, povestlərində də geniş tərcümeyi-hal vermir, portret yaradanda təfərrüata varmır. Rənglərlə, mükalimələrlə, bədii mahiyyətdən doğan haşiyələrlə surətin mühiti, ömür yolu haqqında dolğun təsəvvür oyadır. Çox zaman Elçin Əfəndiyev həyata və insana müasirlik, yetkinlik və əxlaqi-mənəvi zənginlik baxımından yanaşır. Psixoloji yekrənglik və birtərəfliliyi tənqid edir, adi adamların həyatında müşahidə etdiyi qeyri-adiliyin gözəlliyi, şeiriyyəti haqqında hekayələr söyləyir, "gözəllik uzaqda deyil, həyatımızda, məişətimizdədir" – prinsipi ilə hərəkət edərək adi adamların daxilində gizlədib, xəlvətdə saxladığı mənəvi keyfiyyətləri hamımız üçün estetik sərvətə çevirir. Hörmətli qonaqlar, bildiyimiz kimi şairlərimiz Elçin Əfəndiyevin yaradıcılığından bəhs edən çoxlu şeirlər yazıblar. Gəlin oxucumuzun ifasında M.Əzizin Elçin Əfəndiyevin "Əncir ağacı" kitabına yazılmış şeiri oxucumuzun ifasında dinləyək.

Oxucu: Bir zaman Elçinin duyğularından
Xəyal tək ötürdü "Əncir ağacı"
Boyu uzanırdı gündə bir qarış,
Ərsəyə yetirdi "Əncir ağacı"

Rişəsi qalxırdı yerin təkindən,
Ayırmaq olmazdı onu kökündən,
İşıqlı dünyaya çıxdığı gündən,
Min əldə gəzirdi "Əncir ağacı"

Qayatək durmuşdu tufan içində,
Dağa bənzəyirdi duman içində,
Kitab rəflərindən bir an içində
Əriyib itirdi "Əncir ağacı"

Önündə milyon diz çökürdü onun,
Rəssamlar rəsmini çəkirdi onun,
Hərə öz evində əkirdi onu,
Şimalda bitirdi "Əncir ağacı".

Alın yazısı var yarpaqlarında,
Dadı yüz millətin damarlarında,
Əncirlə bərabər budaqlarında
Mükafat gətirdi "Əncir ağacı"

**II aparıcı:** "Bədii-estetik gözlənilməzlik" – bu söz birləşməsi Xalq yazıçısı Elçin Əfəndiyevin zəngin bədii yaradıcılığını səciyyələndirən ən dəqiq ifadələrdən biridir. 1960-cı illərin sonu, 70-ci illər, 80-cı illərin əvvəlləri... Elçin Əfəndiyevin artıq XX əsr Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuş "Qatar. Pikasso. Latur. 1968.", "On ildən sonra", "Baladadaşın

ilk məhəbbəti”, “Parisdə avtomobil qəzası” və s. kimi hekayələri, “Bir görüşün tarixçəsi”, “Toyuğun diri qalması”, “Dolça” kimi povestləri meydana çıxdı. Ədəbiyyatımıza yeni nəfəs gətirən bu əsərlər Elçin Əfəndiyevi müxtəlif dilli geniş oxucu auditoriyasına müasir mövzular yazıçısı kimi tanıtdı. Yaradıcılığı çoxcəhətli bədii tapıntı, orijinal rəng və boyalar üzərindən keçən yazıçı, bir qayda olaraq, əsərlərinin məzmununu müasir həyatdan, gəncliyi düşündürən, narahat edən, bizim günlər üçün səciyyəvi və tipik görünən problemlərdən alır. Çünki Elçin Əfəndiyev müasir həyatla yaşayır, onun axar və istiqamətini dərindən duyur, zəhmət adamlarının arzusunu, duyğu və düşüncəsini ifadə edir, gah əxlaqi-mənəvi təmizlikdən, fədakarlıq və qayğıkeşlikdən, gah da xalqa, ucsuz-bucaqsız Vətənimizə məhəbbətdən yazır. Elçin Əfəndiyev yazarkən dövrün ideya-estetik tələbi səviyyəsində dayanır, çox hallarda fikir və düşüncəsini, psixologiyasını xırda, amma mənalı lövhə və detallarda açır. Mənəviyyata, hiss və duyğuya təsir etmək, oxucunu düşündürmək və fikrən hərəkətə gətirmək üçün yazıçı sözün və bədii təsvirin imkanlarından yaradıcı şəkildə istifadə edir. Yazıçı bəzən hekayənin sujetinə məlum əfsanə, nağıl və rəvayətlərin motivini axıdır.

**I aparıcı:** Mənəviyyata, hiss və duyğuya təsir etmək, oxucunu düşündürmək və fikrən hərəkətə gətirmək üçün yazıçı sözün və bədii təsvirin imkanlarından yaradıcı şəkildə istifadə edir. O, bəzən hekayənin sujetinə məlum əfsanə, nağıl və rəvayətlərin motivini axıdır. Bunlar da dövrün cari həqiqəti, həyati bir mətləbi ilə vəhdət təşkil edir və ideya, müəllif amalı müasirliklə aşılanır. Elçin Əfəndiyevin adi ədəbiyyat yaradıcılığında bədii dili xüsusi iş görür. Yazıçı elita deyilən zümrəni kənara qoyub cəmiyyətin alt qatına, saf, təmənnasız, zəhmətkeş, torpaq kimi əməksevər insanlara üz tutanda onlarla öz gündəlik ailə-məişət dillərində ünsiyyətə girir. Ədəbilik möhürü ilə

aliləşdirilən, bəkağətlə saydırılan nitqin üzündən, necə deyərlər, ənliyini- kirşanını silir. Abşeron camaatının evdə, küçədə, məclisdə işlətdiyi danışığın dadını-duzunu eynən çatdıran təbiiliyi saxlayır. Ədəbilik pərdəsinin parıltılı cilasını təmizləyir və canlı dil Mirzə Cəlil dilinin sadəlik gücü ilə görünür.

**II aparıcı:** Bəli, əsərin gücü oxunuşundadır. Rəvan oxumaq, həvəslə oxumaq Elçin Əfəndiyevin istedadına rəvac verən əsas gücdür. Yazıçı Elçin ana dilinin bilicisidir. Elçin Əfəndiyev istedadlı söz ustası kimi, təbii ki, Azərbaycan türkcəsinin bütün zəriflik və gözəlliklərinə bələddir. Onun Abşeron mövzuları ədəbiyyatımızın şedevrlərindən sayılır. Əsərlərindəki obrazlardan biri də yazıçı özüdür. O, obrazları ilə yazıçıdan çox, həmkar kimi danışır. Elçin Əfəndiyev hər əsərinə görə, hətta bir əsərdəki hər obraza görə özünü, öz dilini xüsusi kökləyir. Ona görə Elçin Əfəndiyev çox oxunan yazıçılardandır. Ənənəvi ədəbiyyatımızda buna xəlqilik deyiblər. Əgər yaradıcılığın boyu min obraz yaradıb hərəsini öz dili ilə danışdırırsansa, deməli sən min nəfərin düşüncə aləminə girə bilmisən. Bu humanizmdir, psixoloq səriştəsidir – yazıçının əsl yazıçı keyfiyyəti də humanizmdir, psixoloq idrakıdır. Elçin Əfəndiyev hər mövzuya görə dilini xüsusi kökləyə bilir.

**I aparıcı:** Elçin Əfəndiyev müasir həyatdan, uşaq vaxtlarından bələd olduğu adamlardan və mənbələrdən yazır. Təsadüfi deyildir ki, Abşeron bağları və kəndləri, Xəzər dənizi onun əsərlərində poetikləşdirilir. Bizi əhatə edən xarici aləm, yaşadığımız evlər, gəzdiyimiz dəniz sahilləri, Bakı bağlarının sarı qumu, dadlı üzüm gətirən meynələri, çadır kimi kölgə salan tut ağacı, çılpaq qayaları Elçin Əfəndiyevin hekayə və povestlərində daim insan hissilərinin hərarətini, insan ürəyinin romantik çırpıntılarını əks edir; çünki yazıçı onları təsvir xatirinə deyil, qəhrəmanlarının həyəcan və iztirablarının, hisslərinin tərcümanı kimi əsərə daxil edir. Bu təsvirlərin yığcamlığı və

təbiiliyi oxucunu daima cəlb edir. Xalq yazıçısı Elçin əfəndiyevin dramaturgiyası bu gün nəinki ölkəmizin, hətta dünyanın bir çox teatrlarının diqqət mərkəzindədir. Yazıçının bu xüsusiyyəti sənət dostları tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. İndi isə gəlin oxucumuzun ifasında Əjdər Qiyaslının xalqımızın yüksək ləyaqətli yetirməsi, el-obamızın qədirkeşi və xeyirxahı sevimli Xalq yazıçısı Elçinə həsr etdiyi "Parlasın səmada tale ulduzun" şeirindən bir parçanı dinləyək.

Oxucu:

... Ağac var tükənmir barı, bəhrəsi,
Bol bəhrə verməkdir eşqi, həvəsi.
Bütün budaqları barla doludur,
Qeyrət ağacı da ömür yoludur...
Sən belə ağacdan daha barlısan,
Elinə, obana etibarlısan!
Səni bənzətsəm də barlı ağaca,
Sən ondan daha çox ucasan, uca!
Hər ağac bir dəfə ildə verir bar,
Səninsə həmişə bəhrə - barın var.
Sənətin yolları olsa da çətin,
Ölçüyə sığmazdır sənin xidmətin!
... Çinartək açmısan qol-qanadını.
Uca saxlamısan təmiz adını...
Yaxşılıq etmisən bəsdi deyincə,
Bəhrəsi tükənməz min il yeyincə!
Sənə arzularam dünya varından:
Açılsın ürəyin övladlarından!
Gözünə nur olsun hər gözəl qızın,
Parlasın Səmada Tale Ulduzun...

**II aparıcı:** Cəmiyyətimizdə baş verən hadisələrin iti yazıçı qələmi ilə bədiiləşdirilməsi, zəmanənin qarşılığında həqiqəti görmək və onu estetik ideala çevirmək, sonda isə oxuculara və tamaşaçılara yüksək mənəvi-əxlaqi dəyərlər aşılamaq bu

sənətkarın yaradıcılığı üçün xarakterikdir. Yaradıcılığına metafizik realizm üslubunda hekayələrlə başlayan yazıçının dünya ədəbiyyatı səviyyəsində dünyəvi dəyərləri əks etdirən əsərləri öz müəllifinə çoxmilyonlu oxucu auditoriyası qazandırıb. Onun yaradıcılığının coğrafi əhatə dairəsi çox genişdir. Yazıçının bədii əsərləri tərcümə edilərək dünyanın müxtəlif ölkələrində sevilə-sevilə oxunur. Müxtəsərlik, aydınlıq və sadəlik onun ilk yazılarından özünü göstərən keyfiyyətlərdəndir. Yazıçının yaradıcılığında müasirlik, dərin psixoloji hisslər, humanist ideyalar, nəcib duyğular, saf arzular mükəmməl şəkildə özünü göstərir. Elçin Əfəndiyev Azərbaycan ədəbiyyatının Qızıl fonduna düşmüş həm tarixi romanların, həm absurd dramların, həm sürrealist və realist hekayə və povestlərin müəllifidir.

**I aparıcı:** Elçin Əfəndiyevin 70-ci illərdəki yaradıcılığı haqqında yazan bu yaradıcılığın orijinallığını xüsusi qeyd edən, onu yüksək qiymətləndirən müəlliflərin sadəcə olaraq, yalnız adlarını çəkmək kifayətdir ki, yazıçının əsərlərinin hələ o zaman Azərbaycan ədəbiyyatında qazandığı mövqe barədə təsəvvür əldə edək: Məmməd Arif Dadaşzadə, Mir Cəlal, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Mirzə İbrahimov, Mehdi Məmmədov, Əziz Mirəhmədov, Yəhya Seyidov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Yaşar Qarayev, Xəlil Rza Ulutürk... Eləcə də onlarla başqa görkəmli tənqidçilər, yazıçılar. Elçin Əfəndiyev ləyaqətlə yaşanmış bir ömrün 40 ildən artıq müddətini ədəbiyyata həsr etmişdir. Onun yaradıcılıq dünyasının sərhədləri heyrətamiz genişliyi, əslində, sərhədsizliyi ilə seçilir. Müasir cəmiyyətdə insan fenomeni həmişə Elçin Əfəndiyevin diqqət mərkəzində olub. Ölkəmizdə cərəyan edən mürəkkəb ictimai-siyasi proseslər, gərgin mənəvi-əxlaqi axtarışlar yazıçının qəhrəmanlarının daxili aləmində öz əksini tapmışdır. Həyat haqqında olan ideal təsəvvürlərin həyatın özündən nə qədər

fərqli olduğunu dərk edən əsərin qəhrəmanları, əslində, ədəbiyyatımızın əzəli mövzusu olan insan azadlığı problemini müasir dövrdə bütün çalarları ilə təcəssüm etdirirlər.

**II aparıcı:** Bəli, Elçin Əfəndiyev yaradıcılığının çoxşaxəli olması ilə seçilən, müxtəlif janrlarda uğurla işləməyi bacaran qələm sahiblərindəndir. Teatr üçün yazdığı əsərlər ədəbi aləmdə yazıçını dramaturq kimi tanıtmışdır. Ölkəmizdə, habelə, dünyada gedən ədəbi-bədii proseslər barədə dövri mətbuatda müntəzəm olaraq dərc etdirdiyi tənqidi məqalələr ədəbiyyatşünasların yüksək qiymətini qazanmışdır. Onun ssenariləri əsasında çəkilmiş bədii filmlər tamaşaçılar tərəfindən həmişə rəğbətlə qarşılanmışdır. Bildiyimiz kimi Elçin Əfəndiyev yaradıcılığı boyu bir sıra povestlər, kinopovestlər yaratmışdır. Bunlardan "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça", "Bayraqdar", kinopovestlərdən "Ox kimi bıçaq", "Aman ovçu, vurma məni...", "Hökmdarın taleyi" və s. misal göstərmək olar. Bu kinopovestlər içərisində "Hökmdarın taleyi" tarixi mövzuda yazılmış ən gözəl əsərdir. Bu əsəri oxuyan hər bir oxucu Azərbaycanın keşməkeşli tarixinə bələd olur. Bu əsəri oxuyan hər bir oxucu Azərbaycanın keşməkeşli tarixinə bələd olur. Söhbət "Hökmdarın taleyi" kinopovestindən düşmüşkən, gəlin yuxarı sinif şagirdlərinin ifasında bu əsərdən bir parçaya tamaşa edək.

*Səhnə əsərə uyğun olan dekorasiyalarla bəzədilir. İfaçılar əsərə uyğun paltarlarda səhnəyə çıxırlar. Tamaşada Qarabağ xanı İbrahim xanı, Axund Mirmöhsün ağanı, Naxçıvan xanı Kəlbəli xanı, İrəvan xanı Məhəmməd xanı, Gəncə xanı Cavad xanı canlandıran yuxarı sinif şagirdləri iştirak edirlər.*

**Aparıcı:** 9 oktyabr 1803-cü il. Şuşa. Xan sarayı. Qarabağ xanı İbrahim xan Naxçıvan xanı Kəlbəli xanı, İrəvan xanı Məhəmməd xanı, Gəncə xanı Cavad xanı Axund Mirmöhsün

ağa ilə birlikdə sarayında qarşılayır. Bu görüşdə məqsəd Xanların Padşah Aleksandrın böyük generalı Sisianovun Tiflisə gəlişindən duyduğu narazılıqdır. Sisianovun məqsədi İrəvan Naxçıvan, Gəncə xanlığını rus padşahına tabe etməkdir.

**İbrahim xan:** Qarabağa təşrif buyurmağınız məni çox şad edib, qardaşlar.

**Kəlbəli xan:** Məhəmməd xan qardaşımızla qərar verdik ki, səninlə məsləhətləşməyə gələk, İbrahim xan. Məsələ vacib, zaman məhduddur. Padşah Aleksandrın böyük generalı Sisianov daha gəlib Tiflisdə əyləşib.

**Məhəmməd xan:** O, bizim İrəvan xanlığından da, Naxçıvan xanlığından da tələb edir ki, rus padşahına tabe olaq!

**Mirmöhsün ağa:** İbrahim xan neçə dəfə Azərbaycan xanlarına təklif etdi ki, gəlin xanlıqları birləşdirib vahid Azərbaycan dövləti yaradaq, hətta onu da buyurdu ki, biz də Nadir şah Əfşarın Muğanda çağırdığı kimi qurultay çağırıb bu məsələni orada həll edək. Amma bu təklifə qol qoyulmadı. Yoxsa ki, indi güclü bir orduya malik olardınız. Peyğəmbər əleyhissəlam yüzlərcə yerə bölünmüş ərəb qəbilələri birləşdirməsəydi, islam dünyası o qədər vüsətli qələbələrə nail ola bilməzdi.

**Məhəmməd xan:** Cənab Mirmöhsün ağa, sizin sözlərinizdə həqiqət var. Ancaq indi təqsirkar axtarmaq vaxtı deyil.

**Kəlbəli xan:** İbrahim xan, sən Fətəli şahla qohum olmusan. Oğlun Əbülfət ağa da hal-hazırda onun sarayında yüksək mənsəbdədir. Əgər Fətəli şah xanlıqlarımızı saxlamaq şərtilə bizə kömək edərsə, biz də Sisianovun təklifini rədd edərik. Mən rus padşahının cəngindən qurtarmağın başqa yolunu görmürəm.

**Cavad xan:** Yekatrinanın əmri ilə general Zubov Qafqaza yeriyib Dərbəndi mühasirə eləyəndə, mən sizə dedim ki, təcili qoşunlarımızı birləşdirib Dərbəndin köməyinə gedək. Bu gün siz və eləcədə, Şəki, Şirvan, Bakı xanları hər bir xanlıqdan mənə iki

min-üç min nəfər atlı versəniz, Sisianova əlavə kömək gəlib çatınca, mən onu aşağı Qafqazdan qovub çıxarardım.
**İbrahim xan:** Mən general Sisianovla görüşüb danışmamış heç bir qərara gələ bilmərəm.
**Cavad xan:** Mən görürəm ki, məsələnin nə qədər ciddi olduğu nə sizi, nə də qardaşlarımızı mənim qədər narahat etmir. Ona görə də mən məclisinizi tərk edirəm və sizi xəbərdar edirəm ki, mən son nəfəsimə qədər rus padşahının qoşunu ilə vuruşacağam. Mən namusumuzu, torpağımızı axırıncı qülləmə qədər müdafiə edəcəyəm!

*İştirakçılar baş əyib, səhnədən ayrılırlar.*

**I aparıcı:** Elçin Əfəndiyev "Klassik aşıq poeziyasında dünya obrazı"ndan da, "Ədəbiyyatda tarix və müasirlik" problemindən də, "Yaxın və uzaq Türkiyənin tarixi və müasir həqiqətlərindən də, "qırmızı qaranlıqlar" dövrünün "Ölüm hökmündən də, insani, bəşəri duyğuların "Mahmud və Məryəm" faciəsindən də, eyni istedad və intellektlə, eyni yazıçı yanğısı və sənətkar fədakarlığı ilə yaza bilir. Elçin Əfəndiyevi həm lirik hekayələr ustası, həm müqtədir romançı, həm mahir komediyalar müəllifi, həm psixoloji faciələr, tragediyalar dramaturqu, həm ədəbi prosesə hakimlik etmək səlahiyyəti olan ustad tənqidçi, həm fundamental monoqrafiyalarıyla özünəməxsus elmi-nəzəri sistemini yaradan klassik ədəbiyyatşünas alim adlandırmaq olar. *Hörmətli tədbir iştirakçıları! Gəlin, Çingiz Əlioğlunun Elçin Əfəndiyevə həsr etdiyi "Portret cizgiləri" şeirini oxucumuzun ifasında dinləyək:*

Oxucu: "mənim ərim dəlidir"
heç görün sözdür sən Allah
"dəlixanadan dəli qaçıb"
Çox elə ağ günə çıxıb o bədbəxt
Güya ki bu dünya büsbütün tamam

dəli yığıncağı deyilmiş balam
indi biz neyləyək
küllü əhli dəliyə “ölüm hökmü”
oxutduraq
of yandı içim “dolça” ver içim
səninki bir cüt ağlar gözdü Elçin
ağrıyırsan için-için
əfsanədi bu dünya gümüş əfsanə
həyat “bir görüşün tarixçəsi”dir
hər gecə dumduru röya gölünə
dipdiri gözlücə ölü batıram
uşaqtək tovlayıb özüm özümü
“bülbülün nağlı”yla mən baş qatıram

**II aparıcı:** Elçin Əfəndiyevin son iki elmi-tənqidi kitabları “Tənqid və nəsr” və “Ədəbiyyatımızın yaradıcılıq problemləri” bir daha əyani şəkildə göstərir ki, professional tənqidçi və ədəbiyyatşünas kimi də Elçin Əfəndiyev maraqlı və orijinal bir simadır, o, ədəbiyyata, ümumiyyətlə, sənətə, klassik və müasir əsərlərə, ədəbi problemlərə öz fərdi münasibəti ilə seçilir. Elçin Əfəndiyev tənqidçi kimi obyektiv və prinsipialdır, cəsarətlidir. O, ədəbiyyatşünas kimi də tarixi faktlara dərindən təmas etməyi bacarır, ədəbi faktları, məlumat və informasiyaları elmi həqiqətə çevirir və bütün bunları yüksək nəzəri səviyyədə ifadə edir. Onun tənqidçiliyi ilə yaradıcılığı arasında ziddiyyət olmamışdır. 1980-ci illər... Müasir mövzular ustası kimi tanınan yazıçı gözlənilmədən tarixə müraciət edir, folklordan bəhrələnərək fəlsəfi-romantik “Mahmud və Məryəm” romanını oxucuların ixtiyarına verir. Yazıldığı vaxtdan keçən onilliklər ərzində “Mahmud və Məryəm” artıq klassikaya çevrilib.

**I aparıcı:** “Mahmud və Məryəm” romanı ilə Elçin yaradıcılığının ikinci mərhələsi başlayır, bir-birinin ardınca “Ağ dəvə”, “Ölüm hökmü” romanları yaranır. “Mahmud və

Məryəm"dəki fəlsəfi romantik əhvali-ruhiyyə bu romanlarda, xüsusən "Ölüm hökmü"ndə sərt realizmə çevrilir, yazıçı cəmiyyət hadisələrinə dərindən nüfuz edir, sovet dönəmində yazıla-yazıla sovet cəmiyyətinin iç üzünü açır. 1990-cı illərin əvvəlləri... Realist romanlar müəllifi yenə də gözlənilmədən absurdlar yazmağa başlayır. Oxucular milli ədəbiyyatımızda ilk dəfə olaraq bu janrla rastlaşırlar. Həqiqi istedadın bəhrəsi olan bu absurdları biz Elçin Əfəndiyevin yaradıcılığının üçüncü mərhələsinə keçid kimi qəbul edirik. Bu üçüncü mərhələ isə absurdlardan sonrakı 90-cı illərdən başlayaraq növbəti dəfə, tamamilə, gözlənilmədən meydana çıxan "Ah, Paris, Paris!...", "Mən sənin dayınam", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir" kimi komediyalarla başlayır. Bu komediyalar tamaşaçıların dərin rəğbətini qazanır, tənqid tərəfindən yüksək qiymətləndirilir, ölkəmizin sərhədlərini aşaraq xaricdə uğurla tamaşaya qoyulur, müxtəlif dillərə tərcümə edilir.

*Söhbətin bu yerində Elçin Əfəndiyevin yazdığı komediyalar əsasında çəkilmiş tamaşalardan fraqmentlər tədbir iştirakçılarına təqdim olunur.*

**II aparıcı:** Görkəmli tənqidçimiz Yaşar Qarayev yazırdı: "Elçin Əfəndiyev dramaturgiyamızda ilk dəfə olaraq xaosun, hərc mərcliyin obrazını yaradır! Onların əsasında duran mənəvi-əxlaqi, ideoloji stereotipə, normativ düşüncə və rəftar tərzinə ən müasir, ayıq, oyaq ədəbi, estetik münasibət ifadə edir". Yaşar Qarayev daha sonra, bu komediyaların mövzusundan bəhs edərək, onları "Elçinin həyatda və səhnədə yüksək sənətkarlıqla təsvir etdiyi hadisələr" kimi qiymətləndirir. Eyni zamanda, 2000-ci illərdən başlayaraq Elçinin müasir Azərbaycan ədəbiyyatında hadisəyə çevrilmiş "Pera Palas" otelində, "Göy üzünün ulduzlu vaxtları...", "Sarı gəlin", "Araba", "Qarabağ şikəstəsi" kimi hekayələri yazıçının yaradıcılığını başqa rakursdan işıqlandırdı. "Bayraqdar" povesti

isə müasir ədəbiyyatımızın XXI əsrdəki bədii-estetik xarakterinin formalaşma prosesinin başladığını göstərir. Povestdə mövzu son dərəcə aktualdır. Ermənistanın təcavüzü nəticəsində xalqımızın düçar olduğu ağır qaçqınlıq həyatı "Bayraqdar" povestində bütün çılpaqlığı ilə göstərilmişdir. Bu əsərdə Elçin Əfəndiyev xalqımızın başına gələn böyük faciəni dramatik səhnələrlə, canlı fraqmentlərlə əks etdirmişdir. Yazıçının özünəməxsus bədii təhkiyəsi, sintaksisi "Bayraqdar" povestində qabarıq nəzərə çarpır. Elçin Əfəndiyev Azərbaycan ədəbiyyatının sayca az nümayəndələrindən biridir ki, bir abzas, hətta bir cümlə oxuduqda, onun müəllifliyini dərhal müəyyən etmək olur. Akademik Məmməd Arif yazırdı: "Elçinin sadə və rəvan təhkiyəsində cəzbedici bir qüvvə vardır". Bəli, Elçin Əfəndiyevin bədii sintaksisindəki "cəzbedici qüvvə" daha da inkişaf etmiş, milli ədəbiyyatımızı zənginləşdirən sənətkarlıq xüsusiyyətinə çevrilmişdir. Bu nöqteyi nəzərdən "Bayraqdar" povestinin təhkiyə dolğunluğu, eyni zamanda axıcılığı oxucunu ələ alır. "Bayraqdar"ın mövzusu qaçqınların faciəli həyatından götürülmüşdür. Povestin əsl mövzusu böyük insani kədərdir.

*Kitabxananın fəal oxucuları "Bayraqdar"povestindən bir parçanı səhnələşdirib, iştirakçılara təqdim edirlər.*

**I aparıcı:** Yazıçı povestdə heç nəyi gizlətmir. Ağır həyat tərzinin xırda detallarınacan sənətkarlıqla təsvir edir. Müəllifin böyük nailiyyətidir ki, qaçqın həyatının bu cür sərt təsviri qaçqınların güzəranına acımaqdan daha çox, oxucuda təcavüzkara qarşı olduqca güclü nifrət hissi oyadır. Hətta öz-özlüyündə erməni Arsenin obrazı da elə incə təsvir vasitələri ilə yaradılmışdır ki, təcavüzkara nifrəti daha da artırır. Bu povestdə sırf epizodik surət yoxdur. Müəllif elə situasiyalar təsvir etmişdir ki, surət canlı xarakter kimi oxucunun gözlərinin qarşısında canlanır. Elçin bu sujetləri məharətlə bir yerə yığa

bilmiş, tam, bütöv bir həyat parçasının bədii atributlarına çevirmişdir.

**II aparıcı:** Elçin Əfəndiyevin yaradıcılığında "yazıçı yaddaşı" güclü bir faktordur. Misal üçün yazıçının həcm etibarilə ən böyük əsəri olan və 60-70 illik bir dövrü əhatə edə "Ölüm hökmü" romanı mürəkkəb kompozisiyaya malikdir. Əsərdə çoxlu personajlar iştirak edir, ancaq onların heç biri "gəldi-gedər" deyildir. Onların hamısı yazıçının yaddaşındadır, buna görə də kiçikliyindən-böyüklüyündən asılı olmayaraq tamamlanırlar. Yazıçı hər bir xarakterlə əlaqədar bədii nöqtəni qoymağı bacarır.

**I aparıcı:** Elçin Əfəndiyevi bir yazıçı, dövlət xadimi, ziyalı, ata kimi həmişə uşaqların həyatı, onların təlim-tərbiyə məsələləri, uşaq ədəbiyyatı və onun problemləri maraqlandırmışdır. Yazıçı hər bir xarakterlə əlaqədar bədii nöqtəni qoymağı bacarır. Yazıçının bu xüsusiyyəti sənət yoldaşları tərəfindən yüksək qiymətləndirilir. Sevimli şairəmiz Xalidə xanım Elçin Əfəndiyevin uşaqlara həsr etdiyi nağıllara müraciət edərkən "Qorxu" adlı bu şeiri yazmışdır. Gəlin bu şeiri balaca oxucumuzun ifasında dinləyək:

Oxucu: Zəncir qollu aya baxma,
Zəncir görən göz əsirdi.
Körpə beyni yeyir ilan,
Bu da belə bir əsrdi.
Yeməyinin tamı qaçıb,
Əllərindən qanı qaçıb,
Bu qorxudan hamı qaçıb,
İgid barmağın kəsirdi.
Tamahına düşməz əsir,
Qan kötüyü – ölüm nəfsi.
Bu "uşaq" div başı kəsir,
Şahdan törəyən nəsildi.

Öz içində soyuq düşüb,
Ölümündən sayıq düşüb,
Yuxusundan oyaq düşüb,
Bədəndən başlar kəsildi.

**II aparıcı:** 1980-ci ildə "Günay, Yalçın, Nigar, bir də bir Səlim" kitabında çap olunan hekayələr göstərdi ki, Elçin Əfəndiyev uşaq ədəbiyyatına barmaqarası baxmır, öz balaca qəhrəmanlarının daxili dünyasına nüfuz etməyi bacarır. Yazıçının uşaq mətbuatında ara-sıra çap olunan hekayələrini balaca oxucular həmişə maraqla qarşılamışlar. Yazıçının "Günay, Humay, bir dənə Günəbaxan və qırt toyuğun cücələri", "Hamı niyə güldü" və s. bu kimi hekayələri uşaq nəsrimizin gözəl nümunələridir. "Humayın yuxusu" kitabında Aysunun, Humayın, Günayın, Yalçının və Nigarın hekayələri olduqca maraqlı və mənalıdır. Bu hekayələrdə uşaqların başına gələn əhvalatlardan söhbət açılır. Bu arada sevimli şairimiz Teymur Elçinin Elçin Əfəndiyevin uşaq hekayələrində xüsusi yeri olan ilk övladı Günaya həsr etdiyi "Nənənin, babanın sevməcələri" şeirinə balaca oxucumuzun ifasında qulaq asaq.

Oxucu: Günəşi aya qatdım,
Mən bir nəğmə yaratdım.
Bu nəğmə Günayımdır,
Körpə torağayımdır.
Aydı bu,
Günaydı bu,
Nənəsinə paydı bu,
Babasına haydı bu!
Aydı bu,
Günaydı bu!
Gün çıxdı,
Gündüz oldu.
Düzənlər düm-düz oldu.

Oyandı Günay balam,
Bir sevincim yüz oldu;
Ay balam,
Günay balam!
Ay çıxdı,
Axşam oldu,
Göy üzü şam-şam oldu.
Günay beşiyə girdi,
Beşiyi bağçam oldu;
Ay balam,
Günay balam!

**I aparıcı:** Miniatürlər silsiləsində isə Abşerondan, bu bərəkətli torpağın dadlı meyvələrindən bəhs olunur. Burada üzüm, gül, dana, dam kimi sözlərin mənaları verilib. Elçinin uşaq hekayələrinin hamısı maraqla oxunur, adamı düşündürür. Elçin Əfəndiyevin baş məsləhətçi olduğu "Mən və mənim dünyam" layihəsi əsasında körpələrimiz üçün çoxlu kitablar nəşr olunub: "Hacı Zeynalabdin Tağıyev", "Osmanlı təpələri", "Surxay qalası", "Hüseynqulu xan", "Şeyx Şamil", "Duz dağı", "Fətəli xanın beşiyi", "Çarıqdaş", "Yeddi gəlin dağı", "Tomris ana", "Mətə xan", "Gavur quyusu" və s. Bu kitablar kitabxanamıza verildiyi gündən balaca oxucularımız tərəfindən həvəslə oxunur. Elçin Əfəndiyevin həyata keçirdiyi bu layihə təqdirəlayiqdir. Bu kitablar sayəsində balaca oxucularımız Azərbaycanın tarixi, tarixi şəxsiyyətləri, coğrafiyası ilə yaxından tanış olurlar.
Uşaqlar, indi isə gəlin Elçin Əfəndiyevin uşaqlar üçün yazdığı "Sözlər, yanıltmaclar, tapmacalar" kitabında yer alan yanıltmaclardan bir neçəsini məktəbli oxucularımızın ifasında dinləyək.

*İştirakçılar səhnəyə çıxıb yanıltmacları söyləyirlər.*

I oxucu: "Nənəm yaman hirsləndi.."
Bizim kəndimiz dağdadı.

Biz də yayda getdik dağa,
Dağ nə dağ!.. Elə xoşlayıram, elə xoşlayıram dağ!.. Meşələr, bulaqlar, yarğanlar...
Bir də ki, bizim gözəlimiz kənd...
Nə yaxşı ki, biz bütün yayı qalacağıq dağda!
Bir gün nənəm həyətdə ocaq qaladı. Yağı əritmək üçün qazana töküb ocağa qoydu.
Yağ əridi, qaynadı, dağ oldu.
Mən də qaçanda, az qaldı ayağım dəyə qazana, az qaldı dağıdam yağı. Yaxşı ki, dağ yağ dağılmadı, məni də yandırmadı.
Nənəm yaman qorxdu, hirsləndi:
Sənin ayağına, dedi.
Dağ basacağam!
Amma mən bilirəm, nənəm məni çox istəyir, ayağıma dağ basmayacaq!...
Nənə elə deyir ki, mən eləcə qaçmayım,
Dağ yağı yerə dağıtmayım! Axı, dağ yağ yandırar məni...

II oxucu: “Qar yağıb, yağmayıb?”
Qar!.. Qar!,,
Vay... Qar yağıb? Yazda bəyəm
Qar yağar?
Yox... Sən demə, qarğadı, ağacın budağına qonub, qar-qar salıb:
Qar-r-r... Qar-r-r...

III oxucu: “Qumru quşları”
O qumru quşlarına bax, nə hirslə
Quruldayırlar...

Qumru quşu qur-qur quruldayır. Elə bil deyir ki, mənə yuva qur,
Qurmaram, ay tənbəl qumru quşu,
özün qur,
Sən qura bilməsən, yaxşı mən
quraram.
Quruldama qur-qur, uç özün qur.

IV oxucu: "Kim uçundu, nə uçdu, nə uçmadı "
Birdən külək əsdi.
Birdən də pırıldayıb bir qaranquş uçdu.
Mənim ürəyim uçundu. Elə bildim
qaranquşun yuvası uşdu.
Amma yox... Qaranquşun yuvası
Uçmadı, özü uçdu,
Mənim də ürəyim daha uçunmadı.

V oxucu: Abşeronda
Getdum meynədən qara üzüm üzüm.
Üzümü üzdüm, yedim.
Vay...
Bulaşdı üzüm!..
Getdim dənizdə üzüm...
Dənizdə üzdüm, təmizləndi üzüm.

*Uşaqlar yanıltmacları söyləyib, alqışlar altında səhnədən ayrılırlar.*

**II aparıcı:** Bəli, Elçin Əfəndiyev canlı, biçimli və köksəyatımlı obrazlar yaradır. Onun əsərlərində surətlər həyatın axarından çıxmır, öz daxili məntiqləri ilə hərəkət edir, cizgilərinin bolluğu ilə fərqlənirlər. Eyni zamanda, yazıçı hekayələrində rəmz və şərtilikdən, öz-özü ilə söhbət və daxili dialoqlardan tutarlı məcaz, əfsanə və nağıl ünsürlərindən sıx-sıx istifadə edir. Bunlar

da əsərlərə bədii məziyyət və hərarət gətirir, təsiri dilin şirinlik və oynaqlığını artırır. Öz əsərlərində uşaqların həyatını qələmə alan bir yazıçı, heç şübhəsiz, onların özü üçün yazmaya bilməzdi. Yazıçının uşaqlar üçün yazdığı hekayələrində romantika, işıq, həyat nəfəsi, sadə, böyük bir dünya öz əksini tapır. Səlim, Günay, Humay və başqa uşaqların həyatı, onların işıqlı və maraqlı aləmi, dünyaya baxışları, təsəvvürləri, xəyalları, bütün bunlarla sıx bağlı olan əhvalatlar, hadisələr Elçin Əfəndiyevin hekayələrində geniş, hərtərəfli verilmişdir. Ən ümdəsi Elçin Əfəndiyev uşaqları həyata qarışmağa, həyatla sıx təmasda görməyə çağırır. Məsələn, "Humayın yuxusu" hekayəsi balaca Humayın bir günlük işıqlı, mənalı həyatı haqqında aydın təsəvvür oyadır. Bu anda Elçin Əfəndiyevin uşaq hekayələri yada düşür. "Səlimin hekayələri", "Mənə niyə gülürlər?", "Gör necə top vuraram...", "Mən hər şeyi bilirəm", "Aysunun, Humayın, Günayın, Yalçının və Nigarın nağılları", "Humayın yuxusu" və s.

*Hörmətli tədbir iştirakçıları, söhbət Elçin Əfəndiyevin "Uşaq hekayələri"ndən düşmüşkən, gəlin balaca oxucularımızın ifasında "Humayın yuxusu"səhnəciyinə tamaşa edək. Səhnə hekayəyə uyğun dekorasiyalarla bəzədilir. Səhnəyə Humayı, onun topunu, siçanını, pişiyini, zürafəsini, yaşıl karandaşını, milisioner rolunu ifa edən balaca oxucular çıxırlar.*

**Aparıcı:** Humay yaxşı qızdır. O, valideynlərinin ona aldığı qırmızı topu çox sevir. Ancaq hərdən köhnə oyuncaqları ilə yaxşı rəftar etmir. Yaşıl karandaşını ağzına salıb çeynəyir, cıqqılı siçanı ilə oynamır, onu evin bir küncünə tullayır, parçadan düzəlmiş bığlı pişiyinin bığlarını dartır, Uzunboy zürafənin şəklini cırır. Bir gün Humay yatıb yuxuda nə görsə yaxşıdır? Oyuncaqların ondan inciyib, küsüb getdiklərini. Gəlin tamaşa edək!

**Aparıcı:** Humayın topu evdən çıxdı, pilləkənləri aşağı düşdü, küçəyə çıxdı, hoppana-hoppana getməyə başladı. Onun qarşısına Cıqqılı siçan çıxdı.
**Cıqqılı siçan:** Ay Humayın topu, hara gedirsən belə?
**Humayın Topu:** Gedirəm Humayın dostlarını yığam aparam Humayın yanına. Humay onlarla oynasın, onları incitməsin.
**Cıqqılı siçan:** Humay yaxşı qızdı. O, məni bığlı pişiklə barışdırmışdı. İnanıram ki, o, məni daha incitməyəcək. Məni də apar Humayın yanına.
**Aparıcı:** Humayın topu düşdü qabağa, Cıqqılı siçan da onun dalınca. Qabaqlarına bığlı pişik çıxdı.
**Bığlı pişik:** Məni də apar Humayın yanına. Humay söz verib ki, bir də heç vaxt mənim bığlarımı dartmayacaq.
**Aparıcı:** Pişik də onlara qoşuldu. Birlikdə gedirdilər, qarşılarına Uzunboy zürafə çıxdı.
**Uzunboy zürafə:** Məni də apar Humayın yanına. Humay söz verib ki, bir də heç vaxt mənim şəklimi cırmayacaq. Məni incitməyəcək, mənimlə oynayacaq.
**Aparıcı:** Zürafə də onlara qoşuldu. Qarşılarına Yaşıl karandaş çıxdı.
**Yaşıl karandaş:** Ay Humayın topu məni də Humayın yanına apar. Humay söz verib ki, bir də heç vaxt məni ağzına salıb dişləməyəcək. Mənimlə qəşəng yarpaq şəkilləri çəkəcək.
**Aparıcı:** Oyuncaqlar birlikdə Humaygilə yollandılar. Qarşılarına Polis əmi  çıxır.
**Polis əmi:** Belə cərgəyə düzülüb hara gedirsiniz?
**Humayın topu:** Polis əmi, biz Humayın oyuncaqlarıyıq. O daha bizimlə yaxşı rəftar edəcək. Onun yanına gedirik.
**Polis əmi:** Düzdür. Humay mənə də söz verib ki, bir də heç vaxt ağlamayacaq, bundan sonra həmişə anasının sözünə baxacaq, yeməyini yeyəcək, böyük bacısı Günayla dalaşmayacaq,

oyuncaqlarını incitməyəcək. Məni də apar onun yanına, ay Humayın topu!...

**Aparıcı:** Humay yuxudan oyandı. Başa düşdü ki, gördükləri yuxu imiş. Tez oyuncaqlarının yanına qaçdı. Onları qucaqladı. Pəncərədən baxıb, yolda duran Milisioner əmiyə salam verdi.

**Humay:** Mən daha oyuncaqlarımı incitməyəcəyəm. Onları sevəcəyəm. Polis əminin dediyi kimi ağıllı qız olacağam.

*Səhnəcik sona çatır.*

**I aparıcı:** İnanırıq ki, istedadlı yazıçı bizim balaca oxucularımızı bundan sonra da gözəl-gözəl əsərlər ilə sevindirəcək. Elçin Əfəndiyevin əsərlərinin əksəriyyəti ekranlaşdırılıb: "Mən sizin dayınızam", "Ah, Paris!.. Paris!..", "Mənim sevimli dəlim", "Mahmud və Məryəm", "Mənim ərim dəlidir", "Ölüm hökmü", "Şuşa dağlarını duman bürüyüb", "Poçt şöbəsində xəyal", "Ağ dəvə", "Qatil", "Ulduz, məhəbbət və şampan şərabı", "Arılar arasında" və s. Elçin müəllimin bədii üslubu – əslində, üslublar sintezidir. Standart üslub ixtisaslaşması Elçin yaradıcılığına yaddır. Bu yaradıcılıq üslub baxımından dinamikdir. Müəllif epik təsvirdə də, lirik təsvirdə də, romantik təsvirdə də özünü sərbəst, azad hiss edir. Elçin Əfəndiyevin yaradıcılığına xas olan bu cəhət Azərbaycan nəsrinin poetikasına xüsusi bir zənginlik gətirir. Elçin Əfəndiyevin yaradıcılığı üçün xas olan bir əhəmiyyətli cəhətdə odur ki, Elçin üçün məhdudluq, coğrafi ərazi məhdudluğu yoxdur. 1976-cı ildə böyük ədəbiyyatşünas alim, akademik Məmməd Cəfər yazırdı: "Elçində bədii idrak duyğusu güclü və cəlbedicidir. Müxtəlif əhvali-ruhiyyəli, müxtəlif fərdi həyat yolları keçən adamların mənəvi aləminə eyni zamanda dərindən nüfuz etmək qabiliyyəti onun yazıçılıq istedadının ən qüvvətli cəhətidir. Onun müxtəlif sənət sahibləri olan obrazları nəinki mənəvi-əxlaqi keyfiyyətləri, arzuları, əməlləri, həm də

peşələrinə və yaşlarına görə də qocası qoca, cavanı cavan, uşağı uşaq kimi inandırıcıdır, realdır."

**II aparıcı:** Görkəmli rus tənqidçisi Lev Anninski yazır: "Elçin... kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir..." Doğrudan da, Elçin mücərrəd obrazlar yaratmaq qabiliyyətinə malik bir yazıçıdır. Yazıçının "Bayraqdar" povestini oxuyarkən insan düşünür: nəhayət ki, Azərbaycan nəsrində qaçqınlarımızın böyük faciəsinin miqyası müqabilində layiqli əsər meydana çıxdı. Ermənistanın Qarabağ iddiası, ölkəmizə təcavüzü, tökülən qanlar, zəhərlənmiş talelər o qədər böyük milli yaramızdır ki, bu yara yalnız yüksək bədii- estetik səviyyədə öz təcəssümünü tapmalıdır. "Bayraqdar" povestində və "Qarabağ şikəstəsi" hekayəsində olduğu kimi. Elçin Əfəndiyevin bunlarla yanaşı, "Bayraqdar" əsəri sanki ustalıqla toxunmuş bir əsərdir. Burada heç bir ipin ucu boş buraxılmır. Bütün iplər öz funksiyasını yerinə yetirərək sənətkarlıqla düyünlənir. Tam mənzərə yaranır. Estetik bütövlük əldə olunur. "Bayraqdar" povesti həmin böyük faciənin yığcam bədii panoramını yaradan, eyni zamanda, ən dərin qatlarını üzə çıxaran sənət əsəridir. Bu əsər öz müəllifinə müasir dövrdə – XXI əsrin əvvəllərində də ədəbi bayraqdarlıq ucalığı gətirmişdir.

**I aparıcı:** Bəli, Elçin hər əsərində Elçindir, hər əsərində sənətkardır, əsərlərinin hər birində mükəmməl söz ustasıdır, gözəl, aydın və məhz özünün olan üslub sahibidir. Elçin Əfəndiyevin belə bir fikri var: Bədii söz aysberqə oxşamalıdır. Görünməyən hissəsi görünən hissəsindən çox olmalıdır. Elçinin "Ədəbi düşüncələr"i bədii aysberqlərin görünməyən hissəsini duymağın yollarını öyrədir. Elçin Əfəndiyevin "Ədəbi düşüncələr"ini fərqləndirən bir amil də odur ki, bunlar yazılarkən, heç bir sistemə, zaman, janr, məktəb ardıcıllığına riayət olunmayıb. Elçin Əfəndiyevin Abşeron mövzuları

ədəbiyyatımızın şedevrlərindən sayılır. Bəli, yazıçı hər mövzuya görə dilini xüsusi kökləyə bilir. O, filoloji biliyi ilə öz yaradıcılığına da nəzarət edir. Yazıçı öz əsərləri ilə sübut etdi ki, sənət həyatın mahiyyətinə nüfuz etməli və bu mahiyyəti üzə çıxarmalıdır. Onun komediyalarını oxucuların şüurunda güclü partlayış yaradan qumbaraya bənzətmək olar. Bu komediyalardakı konfliktlər gerçəkliyin mürəkkəb daxili ziddiyyətlərini yüksək bədiiliklə əks etdirir. Nasir Elçinin xoşbəxt taleyi olduğu kimi, dramaturq Elçin Əfəndiyevin də xoşbəxt teatr taleyi var. Onun pyeslərini həm oxucular, həm tamaşaçılar, həm də sənətçilər sevirlər. Onun dramaturgiyasını xarici ölkələrdə tanıyırlar, sevirlər, oynayırlar... Bəli, yazıçı bu gün çağdaş Azərbaycan dramaturgiyasının ən fəal təmsilçisidir. Elçin Əfəndiyev siyasi quruluşlarda yazdıqlarının bircə cümləsini, bircə sözünü də dəyişmədən bu gün də könül xoşluğu ilə çap etdirə bilən yazıçılardandır. Bu, sənətin mərdanəliyi, sənətkarın xoşbəxtliyidir.

**II aparıcı:** Elçin Əfəndiyev məhsuldar yazıçıdır. Yazıçı ədəbiyyatşünaslığımızı bu gün də məşğul edən, ayrı-ayrı hallarda sənətşünaslıq və estetika elmləri ilə sərhədlənən problemləri iki aspektdə – həm bədii nəsrin təcrübəsində, həm də onun tənqidində diqqət və ehtiyatla araşdırır, müqayisələr aparır, bədii əsərləri və tənqidi fikirləri, müxtəlif müəlliflərin rəylərini tutuşdurur, nəticə çıxarır, yüksək səviyyəli elmi xülasələr əldə edir... Elçin Əfəndiyev saxtanı həqiqətdən, elmi- nəzəri mülahizəni doqmatizmdən, ehkamçı və subyektiv fikirlərdən seçməyi bacarır. Belə hallarda o cəsarətlə tənqid edir, amma ehtiram və təvazökarlıq cızığından da kənara çıxmır. Elçin Əfəndiyevin əsərləri və ədəbi-ictimai fəaliyyəti Azərbaycanda və xarici ölkələrdə bir çox mükafatlara layiq görülmüşdür. Bunlardan "Humay", "Füzuli", "Qızıl Dərviş",

“İlin ən yaxşı hekayəsi”, “Yaddaş”, “Proza N”, “R. Rza” və s. mükafatlara layiq görülmüşdür.

*Tədbirin sonunda söz kitabxananın rəhbərliyinə verilir.*

**Müdiriyyət:** Bu gün Elçin Əfəndiyevin 75 yaşı tamam olur. Bizim ölkədə 20-80 yaş arasında elə bir insan təsəvvür etmək olmaz ki, Elçin yaradıcılığının çox qismini doyulmaz zövq ala-ala, ruhi bir qüdrət qazana-qazana oxumasın, onun lirik-psixoloji üslubu, poeziya ovqatlı, duzlu-məzəli dram əsərlərinə tamaşa etməsin. Elçin Əfəndiyevin ad günü yalnız onun özünün, ailəsinin, minlərlə oxucusunun bayramı deyil, həm də çoxəsrlik ədəbiyyatımızın, mədəniyyətimizin bayramıdır. Çox hörmətli, görkəmli ədibimizə uzun ömür, cansağlığı, işıqlı təfəkküründən, xalqa nurlu məhəbbətindən rişət tapan gumrahlıq, nikbinlik diləyirik. Biz inanırıq ki, yaradıcılığının ən yetkin dövrünü yaşayan ədib kimi siz müasir ədəbi prosesə ciddi təsir edən yeni-yeni əsərlərinizlə bundan sonra da Azərbaycan oxucusunu sevindirəcək, müstəqillik dövrü ədəbiyyatımızın zənginləşməsi işinə öz töhfənizi verəcəksiniz.

*Tədbirin sonunda iştirakçılara Elçin Əfəndiyevin qələmə aldığı quruluşçu rejissoru Ramiz Fətullayev və Dövlət Fəthullin olan “Hökmdarın taleyi” filmi təqdim olunur.*

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri.10 cilddə. – Bakı : Çinar Çap, 2005.

C. 1 : hekayələr, yanıltmac və tapmacalar. - 626 s.

C. 2. : povestlər və kinopovestlər. – 523 s.

C. 3 : pyeslər : Ah Paris, Paris ; Mənim ərim dəlidir. – 590 s.

C.4 : pyeslər və romanlar : Taun yaşayır; Qatil; Mahmud və Məryəm ; Ağ dəvə. – 589 s.

C. 5. Ölüm hökmü; İlyas Əfəndiyev şəxsiyyəti və sənəti haqqında məlumatlar. – 494 s.

C.6. : Səyahət notları ; Esselər ; Ədəbi düşüncələr. – 583 s.

C. 7 : məqalələr. – 570 s.

C. 8 : məqalələr : monoqrafiyalar. – 551 s.

C. 9 : elmi məqalələr. – 509 s.

C. 10 : müsahibələr. – 476 s.

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2005. - 600 s. : (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri : romanlar. - Bakı : Avrasiya Press, 2005. - 424 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Ağ dəvə. - Bakı : Çinar-çap, 2003. - 242 s.

Aqoniya, yoxsa təkamül? : XIX əsr Azərbaycan ədəbiyyatına bir nəzər. - Bakı : Təhsil, 2014. - 64 s.

Baladadaşın ilk məhəbbəti : Son otuz iki ilin hekayələri. - Bakı : QAPP-POLİQRAF Korporasiyası, 2000. - 480 s.

Bayraqdar : povest . - Bakı : QAPP-POLİQRAF Korporasiyası, 2004. – 170 s.

Kitabi Dədə Qorqud aliliyi = The supremacy of "Kitabi-Dede Gorqud" = La grandeur de "Kitabi-Dede Gorqoud" = Бессмертие "Книги Праотца Горгуда" = Die majestat des "Kitabi Dede Korkut" = "كثاب دده قو رقود عالى ليبى " - Bakı : Azərnəşr, 1999. - 142 s.

Qarabağ şikəstəsi : hekayə. - Bakı : Mütərcim, 2009. - 48 s. - ("525 kitab" seriyası).

Mahmud və Məryəm . - Bakı : Çinar-çap, 2003. - 208 s.

Pyeslər. - Bakı : Çaşıoğlu, 2012. - 944 s.

Romanlar : "Mahmud və Məryəm". "Ağ dəvə". "Ölüm hökmü". - Bakı : Aspoliqraf, 2013. - 736 s.

Sosrealizm bizə nə verdi? : sovet dövrü ədəbiyyatı haqqında. Məsələnin qoyuluşuna dair. - Bakı : Mütərcim, 2010. - 76 s.

Şəxsiyyət və istedad : C.Cabbarlının həyatı və yaradıcılığı haqqında düşüncələr. - Bakı :  2000. - Azərbaycan, ingilis və rus dillərində.

Tənqid və nəsr : Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945-1965). - Bakı : Günəş, 1999. - 216 s.

Yeni hekayələr. - Bakı : Təhsil, 2014. - 312 s.

***Elektron resurslar***

Ağ dəvə [səs yazısı]. - Bakı : "Avrasiya" Fondunun maliyyə dəstəyilə Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin Bakı Tədris Müəssisəsinin Səsyazma studiyası, 2004. - 7 ak. - (Danışan kitabxana silsiləsindən).

Seçilmiş əsərləri [Elektron resurs] / Elçin ; məsl. L. Məmmədova [et al.] ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

***Uşaq hekayələri***

Aysunun, Humayın, Günayın, Yalçının və Nigarın nağılları // Seçilmiş əsərləri. 10 cilddə. I c. – Bakı : Çinar-çap, 2005. – S.546-581.

Balaca qırmızı çiçək və Gilas qız. - Bakı : Beşik, 2010. - (Mən və mənim dünyam).

Günay, Humay, bir dənə günəbaxan və qırt toyuğun cücələri. - Bakı : Beşik, 2009. - 18 s. - (Mən və mənim dünyam).

Kukla, yoxsa Aysu. - Bakı : Azərbaycan, 1998. - 48 s.

Küləyin, çinarın və qaranquş balasının nağılı. - Bakı : Beşik, 2009. - 19 s. - (Mən və mənim dünyam).

Qəhrəman Aysu, qara pişik və cıqqılı siçanın nağılı. - Bakı : Beşik, 2009. - 27 s. - (Mən və mənim dünyam).

Mənə niyə gülürlər? : nağıl - Bakı : Beşik, 2009. - 27 s. (Mən və mənim dünyam).

Səlimin hekayələri // Seçilmiş əsərləri. 10 cilddə. I c. – Bakı : Çinar-çap, 2005. – S.537-544.

***Kitablarda***

"Aydın" və Aydınların faciəsi // Seçilmiş əsərləri 10 cilddə. - Bakı : Çinar-Çap, 2005. – C. 8. - S. 22-33.

"Kitabi-Dədə Qorqud" aliliyi // Seçilmiş əsərləri 10 cilddə. - Bakı : Çinar-Çap, 2005. C. 8. - S. 61-72.

Baladadaşın ilk məhəbbəti : hekayə // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. - C.5. - S. 242-259.

Bəstəkarın vətəndaş sözü : Üzeyir Hacıbəyovun publisistikası haqqında // Seçilmiş əsərləri 10 cilddə. - Bakı : Çinar-Çap, 2005. – C. 8. - S. 434-480.

Əbədi müasirimiz : Mirzə Cəlil Məmmədquluzadə haqqında // Seçilmiş əsərləri 10 cilddə. - Bakı : Çinar-Çap, 2005. – C. 8. - S. 140-146.

Qatil // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-Qərb, 2007. - C. 4. - S. 245-301.

Məmməd Əmin Rəsulzadə // Seçilmiş əsərləri 10 cilddə. - Bakı : Çinar-Çap, 2005. C. 8. - S. 12-28.

Nəriman Nərimanov // Seçilmiş əsərləri 10 cilddə. – Bakı : Çinar-Çap, 2005. – C. 8. - S. 36-60.

Talvar : hekayə : akademik Məmməd Arif Dadaşzadənin xatirəsinə // Talvar. - Bakı : Təhsil, 2009. - (Məktəb Kitabxanası).

**Dövri mətbuatda**

“Aqoniya", yoxsa təkamül? : XIX əsr Azərbaycan ədəbiyyatına bir nəzər : dördüncü məqalə // Ədəbiyyat qəzeti. - 2014. - 10 yanvar. - № 1. - S. 4. ; Azərbaycan. - 2014. - № 2. - S. 145-166. - Əvvəli qəzetin 2013-cü il dekabr nömrələrində.

Azərbaycan Yazıçılar Birliyi və "Ədəbiyyat qəzeti" - 75 : Baş nazirin müavini, xalq yazıçısı Elçinin nitqi // Ədəbiyyat qəzeti. - 2009. - 18 dekabr. - №48-49. - S. 1-2.

Cəhənnəm sakinləri : yeddihissəli dram // Azərbaycan. - 2009. - № 2. - S. 10-34.

Çingiz xanın daşları : hekayə // Ədəbiyyat qəzeti. - 2017. - 11 mart. - № 9. - S. 10-11.

Dəyişməzlik : Abid Tahirlinin 60 yaşı münasibətilə // Ədəbiyyat qəzeti. - 2015. - 14 noyabr. – № 58.

Elçin : "Hər şeyi təkcə mühitlə bağlamaq olmaz..." // Pəncərə. - 2007. - № 4. - S.8-17.

İntihar : gözəl kor qız haqqında hekayə // Ədəbiyyat qəzeti. - 2017. - 29 aprel. - № 15. - S. 16-18.

Kərpickəsən kişinin kədərli dastanı : Şərif Ağayarın yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 11 fevral. - № 5. - S. 3.

Qanlı mart hadisələrindən 91 il keçir // Mədəniyyət. - 2009. - 1 aprel. - S. 4.

Qəbiristanlıqda məhəbbət əhvalatı : hekayə // Ədəbiyyat qəzeti. - 2016. - 26 noyabr. - № 44/45. - S. 4-6.

Qoca Fikrət : Fikrət Qocanın 80 illiyinə // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 2-3.

Qocalığa hələ çox qalıb : Anarın 75 yaşına // Ədəbiyyat qəzeti. - 2013. - 1mart. - № 10. - S. 4.

Missiya : Musa Namazovun xatirəsinə : hekayə // Ədəbiyyat qəzeti. - 2016. - 15 oktyabr. - № 38. - S. 2-4.

Mişel Fermo və onun komediyası haqqında // Azərbaycan : jurnal. - 2016. - № 10. - S. 15-16.

Mühacir ədəbiyyatımızın tədqiqi : [Nikpur Cabbarlının "XX əsr Azərbaycan mühacirət ədəbiyyatı (türkdilli örnəklər əsasında) monoqrafik tədqiqatı] // Ədəbiyyat qəzeti. - 2017. - 8 iyul. - № 24. - S. 6-7.

Nizami və onun tədqiqatçısı haqqında bir neçə söz : Oksford Universitetinin Londonda ingilis dilində və Bakıda Azərbaycan dilində nəşr olunmuş "Böyük Azərbaycan şairi Nizami" kitabına yazılmış ön söz // Ədəbiyyat qəzeti. - 2017. - № 33. - S. 2.

Ölümə hazır olan insan : "Milyonçu qadın"ı tərcümə edərkən : dramaturgiya // Azərbaycan : jurnal. - 2017. - № 4. - S. 3-6.

Öz istehkamı olan yazıçı : Kobo Abenin məşhur "İstehkam" pyesini tərcümə edərkən yazılmış söz // Ədəbiyyat qəzeti. - 2012. -15 iyun. - № 22. - S. 3.

Payız ovqatının dedikləri : tanrı əzabları haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - № 40. - S. 20-22.

Rəssam Muxtar Manaflının həyatı, sənəti və bu dünyadan qaçışı : hekayə // Ədəbiyyat qəzeti. - 2017. - 2 dekabr. - № 44/45. - S. 6-7.

Sənətkarın taleyi (Ərəblinski) : davamlı proloqdan və on beş şəkildən ibarət faciə // Azərbaycan. - 2012. - № 11. - S. 11-48.

Siz kimsiniz, Qəzənfər Paşayev : professor Qəzənfər Paşayevin 80 illiyi // Ədəbiyyat qəzeti. - 2017. - 29 iyul. - № 27. - S. 5.

Sosrealizm bizə nə verdi? : Sovet dövrü ədəbiyyatı haqqında. Məsələnin qoyuluşuna dair // Azərbaycan. - 2011. - **№** 1. - S. 145-165.

Söz azadlığı tənqidimizə nə verib? // Azərbaycan. - 2017. - № 12. - S. 162-186. ; Ədəbiyyat qəzeti. - 2017. - 21 oktyabr. - № 37. - S. 12-13. ; 28 oktyabr. - № 38. - S.2-4. ; 4 noyabr. - № 39. - S.8-10.

Şeytan əməli : maskalar silsiləsindən // Ədəbiyyat qəzeti. - 2017. - 16 dekabr. - № 48/49. - S. 10-11.

Şeytan sonatası : (Absurd) : "Maskalar" silsiləsindən : pyes // Ədəbiyyat qəzeti. - 2017. - 30 sentyabr. - № 34. - S. 14-15.

Teleskop : on bir şəkildən və iki epiloqdan ibarət tragikomediya // Azərbaycan. - 2011. - № 7. - S. 3-50.

Tut Budağı, Ərik Budağı və Sarı Bülbülün nağılı // Ədəbiyyat qəzeti. - 2017. - 30 dekabr. - № 52. - S. 4-5.

“Yalnız həqiqət”in həqiqəti : Jan-Pol Sartrın eyni adlı əsəri haqqında söz // Azərbaycan. - 2012. - № 4. - S. 13-16.

***Rus dilində***

Артист : трагедия в пятнадцати картинах и с прологами // Литературный Азербайджан. - 2012. - № 9. - С. 3-38.

Из цикла "Сказки" // Литературный Азербайджан. - 2012. - № 4. - С. 3-47. - Сказка старого дуба ; Сказка о черном вороне, решившем творить добро ; Сказка о прутике ивы и прекрасном олеандре и др.

О новых творческих успехах Полада Бюльбюльоглу // Зеркало. - 2010. - 30 января. - № 18. - С. 26.

Судьба Кащея : короткая повесть / пер. А. Мустафа-Заде // Литературный Азербайджан. - 2013. - № 5. - С. 45-61.

Тень : рассказ // Литературный Азербайджан. - 2013. - № 4. - С. 15-26.

Что дал нам соцреализм // Каспий. - 2011. - 11 июня. - № 104. - С. 8.

***О твоачестве Эльчина***

Размышления, навеянные пьесой народного писателя Азербайджана Эльчина Эфендиева "Телескоп" // Литературный Азербайджан. - 2012. - № 5. - С. 91-93.

***İngilis dilində***

Elchin. My favourite and Other Plays. – Bakı : Aspoliqraf, 2012. 312 p. – This is a book of Engilish translations of the following plays by People's Writer Elchin, one leading figues of modern Azerbaijani literature: My Favourite Madman, Shakespeare, Citizens of Hell and Telescope.

***Haqqında***

***Kitablarda***

Elçin. Ömrün anları : foto-albom. - Bakı : Çinar - Çap, 2009. - 656 s. : portr.,
Elçin (1943) // Müasir Azərbaycan ədəbiyyatı : dərslik. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. – C.2. - S. 496-526.

## El üçün yaşayıb, yaradan yazıçı Elçin Əfəndiyev
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 32
Çapa imzalanmışdır: 16.04.2018
Tirajı:100
Pulsuz